www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 yanvar 2019-cu il Bazar ertəsi № 9 (7179) Qiyməti 60 qəpik

**Xəbər**

**Qubada dəhşətli olay: ata maşınla 5 yaşlı oğlunun üstündən keçdi**

yazısı səh.14-də

**Gündəm**

## Prezident struktur islahatlarının anonsunu verdi: hansı nazirliklər və komitələr ləğv ediləcək?



Xeyli sayda qurumun ləğv edilərək bir nazirlikdə birləşdirilməsi haqda təkliflər var...

yazısı səh.4-də

## Maliyyə naziri ötən ilin iqtisadi artım göstəricilərini açıqladı, ekspertlər şərh etdi

yazısı səh.6-da

## Mariya Zaxarova kimin dili ilə Azərbaycanı hədələyir?

yazısı səh.12-də

## Əməkdaşımız Bakıdakı donuz fermasında oldu-donuz qripi...

yazısı səh.10-da

## Qarabağ danışıqları başlayır - köhnə "dairə" üzrə hərəkətə davam, yoxsa?

yazısı səh.11-də

*Fikrət Qoca:*

## "Demokratiya budursa, mən bunu istəmirəm"

yazısı səh.13-də

## Türkiyə Suriya əməliyyatını niyə gecikdirir - ilginc səbəb

yazısı səh.12-də

## Martdan paytaxtın bəzi mağazalarında torbalar pullu olacaq

yazısı səh.14-də

## Deputat Mehman Hüseynovun azad edilməsinin yollarını açıqladı

yazısı səh.3-də

## Qaçqın və məcburi köçkünlərimizin dəqiq sayı nə qədərdir?

yazısı səh.14-də

## Azərbaycan FETÖ-çü generalı istintaqa cəlb etdi

yazısı səh.2-də

# FAZİL MƏMMƏDOVUN TALEYİNİ HƏLL EDƏN QƏRAR - ONU BAĞIŞLAMAQ OLMAZ!

Prezidentin müşavirədəki çıxışı bir daha göstərir ki, 13 ay əvvəlki qərarın səbəbi vergi sahəsində yaradılan xaosla bağlı olub; Fazil Məmmədovun əməllərinin yenidən yada salınması həm də o deməkdir ki, keçmiş nazirin xəstəliyi onun günahlarını azaltmayıb və dövlət başçısı onu bağışlamayıb...




yazısı səh.3-də

# "Qalib" Ermənistan məğlub durumda - işğalçı ölkə ən kritik dönəmə girir

Bu gün Ermənistanın yeni parlamenti ilk iclasına toplaşır; təzə hökumətin elan edəcəyi proqramda xarici siyasət prioriteti ABŞ, yoxsa Rusiya olacaq - gözlər İrəvanda

yazısı səh.8-də



## Eldar Mahmudovun revanşı - həbsdəki əmisi oğlu üçün hərəkətə keçdi

yazısı səh.5-də



*Fəzail Ağamalı:*

## "Ola bilsin, 2019-cu ildə parlament seçkiləri keçirilsin"

yazısı səh.7-də



## Hacı Qalib Kardioloji Sanatoriyanın ərazisini də zəbt edib

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019



# İlham Rəhimov - 68

**Bu gün hüquq elmləri doktoru, professor İlham Rəhimovun doğum günüdür. Bu münasibətlə hörmətli professoru təbrik edir, ona cansağlığı arzu edirik.**

**Həm Azərbaycanın, həm də Rusiya və qardaş Türkiyənin elmi və işgüzar dairələrində yaxşı tanınan İlham Rəhimov tərcümeyi-halı zəngin və həyat yolu şərəfli olan dəyərli ziyalılarımızdandır.**

**14 yanvar 1951-ci ildə Tovuz rayonunda anadan olan İlham Rəhimov Leninqrad (hazırkı Sankt-Peterburq) Dövlət Universitetinin hüquq fakültəsinİ bitirib. 1988-ci ildə həmin universitetdə doktorluq dissertasiyası müdafiə edib. Bununla da postsovet məkanında cinayət hüququ sahəsində ən gənc elmlər doktoru olub. 1996-cı ildə isə professor elmi adını alıb.**

**Əmək fəaliyyətinə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi kimi başlayıb. Uzun müddət Azərbaycan Respublikası Ədliyyə Nazirliyində idarə rəisi vəzifəsində işləyib. 1996-2000-ci illərdə müxtəlif ali məktəblərdə hüquq fənnindən dərs deyib. "İslah-əmək təsirinin nəzəri və praktiki problemləri", "Məhkəmə proqnozlaşdırılmasının nəzəriyyəsi", "Cəzanın fəlsəfəsi və onun vəzifəsinin problemləri", "Cinayətkarlıq və cəza", "Cinayət və cəzanın fəlsəfəsi" kitablarının müəllifidir.**

**2005-ci ildə Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi sahəsində gördüyü işlərə görə 2-ci dərəcəli "Böyük Pyotr" ordeni ilə təltif olunub. O birinci azərbaycanlıdır ki, bu ordenə layiq görülüb. 2009-cu ildə Beynəlxalq Qara dəniz və Xəzər dənizi əməkdaşlıq və tərəfdaşlıq fondunun direktorlar Şurasının Fəxri üzvü seçilib. Xalqlar və dinlərin bir-birinə yaxınlaşması, eləcə də cəmiyyətin inkişafında xidmətlərinə görə Beynəlxalq fondun diplom və medalları ilə təltif olunub. 2011-ci ildə Azərbaycan prezidentinin qərarı ilə ona "Azərbaycan Respublikasının əməkdar hüquqşünası" fəxri adı verilib. Həmçinin Fransanın "Beynəlxalq İnsan hüquqları müdafiə komitəsinin" I dərəcəli (ali) "Aypara və ulduz" ordeni ilə təltif edilib və ona Beynəlxalq "Aypara və ulduz" ordeninin kavaleri fəxri adı verilib. Bundan əlavə, 2014-cü ildə mərkəzi ofisi Nyu-Yorkda yerləşən Albert Eynşteyn adına Beynəlxalq Fondun laureatı adına layiq görülüb. Eyn ildə İstanbulda "Qara Dəniz-Xəzər Dənizi Əməkdaşlıq və Tərəfdaşlıq üzrə Beynəlxalq Fondunun fəaliyyətinin inkişafına verdiyi xüsusi töhfəyə görə" mükafata layiq görülüb. Yenə həmin ildə ona Bolqarıstan EA-nın "Doktor Honoris Kauza" ali mükafatı təqdim olunub. 2015-ci ildə demokratik cəmiyyət quruculuğu və hüquqi dövlət institutlarının inkişafındakı xidmətlərinə görə "Femida" ali hüquq mükafatına layiq görülüb. 2016-cı ildə Sofiyada "Qara dəniz-Xəzər regionu ölkələrində hüquq nəzəriyyəsi və praktikasının inkişafında aktual problemlər" mövzusunda beynəlxalq dəyirmi masanın yekununda Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyası yaradılıb və bu qurumun rəhbəri seçilib. 2017-ci ildə Rusiya-Azərbaycan və Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyi xidmətlərə görə Mahmud Qaşqari adına Beynəlxalq Fondun mükafatına layiq görülüb.**

**Professor iş adamı olaraq da geniş ictimaiyyətə yaxşçı tanışdır. O həm bir elm, həm də iş adamı və ziyalı olaraq, Azərbaycan-Rusiya, Rusiya-Türkiyə münasibətlərinin inkişafında özünəməxsus töhfələr verib və verməkdədir. O, həmçinin, Rusiya kimi bir superdövlətin prezidenti Vladimir Putinlə şəxsi dostluğu sayəsində Rusiyada yaşayan yüz minlərlə azərbaycanlı üçün bir hüquq müdafiəçisi qismində tanınır.**

**Professor Rəhimov hər addımda türk milli kimliyini yüksəkdə tutan və bütün məsələlərə Azərbaycanın maraqları prizmasından baxmağı, şəxsi əlaqələrini təmsil etdiyi millətin xeyrinə xərcləməyi bacaran şəxs kimi bir çoxlarına örnək sayıla bilər.**

**Dəyərli ziyalımızı ad günü münasibətilə bir daha təbrik edir, ona uzun ömür, Azərbaycan xalqı və dövləti naminə elmi və işgüzar fəaliyyətində yeni-yeni uğurlar arzu edirik.**

**❑ "Yeni Müsavat"**

# Azərbaycan FETÖ-çü generalı istintaqa cəlb etdi

**Türkiyədə 2017-cı il iyulun 15-də baş vermiş hərbi çevriliş cəhdinin ardınca Ankaranın istəyi ilə Azərbaycan hüquq-mühafizə orqanları da Fətullah Gülənin şəbəkəsinə (FETÖ) qarşı təhqiqat başladıb. Virtualaz.org xəbər verir ki, bu təhqiqat çərçivəsində 15 iyul hərbi çevriliş planının lideri hesab edilən ordu generalı, Türkiyə Hərbi Hava Qüvvələrinin keçmiş komandanı Akın Öztürk də dindirilib.**



Azərbaycanın prokurorluq orqanları iki ölkə arasında ədliyyə sahəsində qarşılıqlı əməkdaşlıq əsasında Türkiyənin Ədliyyə Nazirliyinə general Akın Öztürkə yönəldilməli olan 10 sual göndərib. Həmin suallar Akın Öztürkün Azərbaycandakı əlaqələri barədə olub.

Türkiyə Ədliyyə Nazirliyinin xarici əlaqələr və Avropa İttifaqı üzrə idarəsi Azərbaycan tərəfinin tələbini Ankara Cümhuriyyət Prokurorluğuna göndərib. Bu tələb əsasında prokurorluq Akın Öztürkü ötən gün yanvarın 12-də saxlanıldığı Sincan F tipli həbsxanadan jandarmanın müşayiəti ilə Ankara Ədliyyəsinə aparıb. Orada prokuror Mustafa Saylam Azərbaycanın ədliyyə orqanlarının göndərdiyi sualları Öztürkə yönəldib. Suallar əsasən Öztürkün Azərbaycandakı əlaqələri barədə olub. 45 dəqiqəyə yaxın dindirmədən sonra Öztürk yenidən Sincan həbsxanasına aparılıb.

Bildirilir ki, Azərbaycanın hüquq-mühafizə orqanları FETÖ təhqiqatı ilə bağlı bu təriqətin gizli strukturları, maliyyə və təhsil sahəsindəki fəaliyyətləri, gizli xəbərləşmə metodları barədə də məlumatları Türkiyə tərəfindən istəyib.

Bu sorğu əsasında Türkiyənin Ədliyyə Nazirliyi Ankara Cümhuriyyət Prokurorluğuna yazılı məktub göndərərək tapşırıb ki, FETÖ-nun Türkiyədəki fəaliyyətləri və strukturu barədə əhatəli dosye hazırlansın, Ədliyyə Nazirliyi vasitəsilə Azərbaycan tərəfinə göndərilsin.

Xatırladaq ki, Ankara Cümhuriyyət Prokurorluğunun hazırladığı ittiham aktına əsasən general Akın Öztürk hərbi çevriliş cəhdi ərəfəsində bəzi xarici ölkələrlə telefon danışıqları aparıb, o cümlədən Azərbaycanda istifadə olunan 99451660... mobil nömrəsi ilə 2 dəfə danışıb.

# Bu gün Bakıda 9° isti olacaq

**Yanvarın 14-də respublika ərazisində gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin 13-dən 14-nə keçən gecə bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Səhər və axşam bəzi yerlərdə duman olacaq. Gecə və səhər arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-4° isti, gündüz 7-9° isti, Bakıda gecə 2-4°, gündüz 7-9° isti təşkil edəcək. Atmosfer təzyiqi 754 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 50-55 % olacaq.

Yanvarın 13-ü gününün ikinci yarısında Bakıda və Abşeron yarımadasında arabir güclənən cənub-qərb küləyinin 13-ü axşamdan 14-ü səhərədək arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacağı gözlənilir. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-9° isti təşkil edəcək.



# Qubada ceyran ovlayan şəxs saxlanılıb

**Quba rayonunda qanunsuz ov edən şəxs saxlanılıb. DİN-in mətbuat xidmətinin Quba rayonu üzrə regional qrupundan musavat.com-a verilən məlumata görə, Quba rayon Polis şöbəsinin əməkdaşları tərəfindən Tülər kəndi ərazisində ölkəmizdə ovlanması qanunla qadağan olunmuş meşə fonduna aid bir baş ceyran ovlamaqda şübhəli bilinən şəxs saxlanılıb.**

Araşdırmalarla onun həmin kənd sakini Habil Muradov olduğu müəyyən edilib. Faktla bağlı Quba rayon Polis şöbəsində araşdırmalar aparılır.



# BP Xəzərdə yeni nəhəng qaz yatağının izinə düşüb

**BP şirkəti və onun tərəfdaşları Azərbaycanda nəhəng qaz yatağının ("Şahdəniz" qaz-kondensat yatağı) işlənilməsinə 28 milyard dollar sərmayə qoyublar və bu, yalnız tarixin başlanğıcı ola bilər.**

Trend-in məlumatına görə, bu barədə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Cons "Bloomberg" agentliyinə bildirib. Onun sözlərinə görə, şirkət 2020-ci il üçün ölkədə 6 yeni kəşfiyyat quyusu qazmaq niyyətindədir.

Məlumatda deyilir ki, əgər BP-nin gözləntiləri doğrularsa, şirkət ehtiyatları təxminən "Şahdəniz"in ehtiyyatlarına bərabər olan yeni qaz yatağı tapa bilər. Regional prezident bildirib: "Braziliya ilə yanaşı, Azərbaycan bizim üçün yaxın bir neçə il üçün prioritet fəaliyyət istiqamətlərindən biri sayılır. Bu kəşfiyyat proqramı bizim üçün çox vacibdir, çünki biz Xəzərdə böyük potensial görürük".

Q.Consun sözlərinə görə, BP-nin bu il quyular qazmaq niyyətində olduğu Şəfəq-Asiman strukturunda qaz ehtiyatı "Şahdəniz-2" yatağının ehtiyatlarına bərabər ola bilər. O, əlavə edib ki, strukturda qazma işləri 2019-cu ilin sonuna planlaşdırılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019




# Fazil Məmmədovun taleyini həll edən qərar - onu bağışlamaq olmaz!

Prezidentin müşavirədəki çıxışı bir daha göstərir ki, 13 ay əvvəlki qərarın səbəbi vergi sahəsində yaradılan xaosla bağlı olub; Fazil Məmmədovun əməllərinin yenidən yada salınması həm də o deməkdir ki, keçmiş nazirin xəstəliyi onun günahlarını azaltmayıb və dövlət başçısı onu bağışlamayıb...

**13 ay əvvəl qəfil işdən çıxarılan vergilər naziri Fazil Məmmədovun məsuliyyətə cəlb oluna biləcəyi ilə bağlı iddialar yenidən təzələnib. 17 il Vergilər Nazirliyinə rəhbərlik etmiş F.Məmmədov son illər işdən çıxarılan nazirlərdən ən gənci olsa da (1964-cü il) uzun aylardır ki, Azərbaycandan kənarda müalicə olunurdu. F.Məmmədov ötən ilin sonlarında Bakıya qayıtdı və dərhal da onun yenidən ağır cərrahi əməliyyat keçirdiyi xəbəri yayıldı. Onun indi harada olduğu və sağlıq durumu barədə informasiya yoxdur. Amma onun əməlləri haqda hələ də danışılır.**

Prezident İlham Əliyev yanvarın 11-də nazirlərlə keçirdiyi müşavirədə vergi sahəsində dərin islahatlar aparıldığını deyib. Prezident adını çəkməsə də, Fazil Məmmədovun nazirliyə rəhbərlik etdiyi dövrü yada salıb: “Hesab edirəm ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü”. Dövlət başçısı əlavə edib ki, F.Məmmədovun nazir olduğu illərdə vergi sahəsində özbaşınalıq hökm sürüb: “Bütün bunlara son qoyulmalı idi və son qoyuldu. Keçən ilin təcrübəsi onu göstərir ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir. Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də görəcəyik. Bu sahələrdə tam şəffaflıq və dürüstlük olmalıdır. Vergi sahəsində aparılan islahatlar qanunsuz məşğulluğa son qoymalıdır”.

Dövlət başçısı qeyd edib ki, həm vergi, həm gömrük sahələrində işləyənlərə xəbərdarlıq edilib ki, əvvəlki qayda ilə işləmək mümkün olmayacaq və onlar özləri də bu nəticəni çıxarsınlar. “Kim ki nəticə çıxarmır, onlara qarşı tədbirlər görülür, o cümlədən bir çox adamlar cinayət məsuliyyətinə də cəlb olunurlar” deyə, dövlət başçısı bildirib.

Prezidentin çıxışı bir daha onu göstərir ki, 13 ay əvvəlki qərarın səbəbi F.Məmmədovun içki düşkünü yox, ən əsası vergi sahəsində yaratdığı xaosla bağlı olub. Bunu o səbəbdən yada salırıq ki, F.Məmmədovun “içki məclislərinə” görə işdən çıxarıldığı iddia olunurdu. Sabiq nazirin ətrafı mediaya hətta F.Məmmədovun tezliklə hansısa ölkəyə səfir göndəriləcəyi barədə dezinformasiyalar yayırdı. Bu, əlbəttə ki, diqqəti sabiq nazirin 17 ilik fəaliyyətindən yayındırmaq cəhdi idi. Amma yeni vergilər naziri Mikayıl Cabbarov ilk çıxışında F.Məmmədovun fəaliyyətini ciddi tənqid etməklə qərarın əsl səbəbini göstərmiş oldu. Yeni nazir F.Məmədovun dövründə vergi ödəyicilərindən ödənilməli olan vergi məbləğindən artıq vəsaitlərin alındığını, həmin pulların şəxsi ciblərə axdığını bildirmişdi.

Vergi şəklində yığılan 4 milyard manata yaxın vəsaitin büdcədən yayındırılaraq ofşorlara yönləndirildiyi barədə mediada yayılmış iddialardan sonra isə F.Məmmədovun ürəyi dözmədi. F.Məmmədovun ürəyinin tutması mediada ciddi ittihamların ortaya çıxdığı dövrlərə təsadüf etməsi onun məsuliyyətdən yayınmaq cəhdi kimi də qiymətləndirilirdi. İddia olunurdu ki, əslində sabiq nazirin səhhətində heç bir ciddi problem yoxdur. Durumunun ağır olması barədə məlumatlar isə özünün istəyi ilə yaxınları tərəfindən məqsədli şəkildə yayılır. F.Məmmədovun yaxın çevrəsi ilə ünsiyyətdə olan şəxslərdən birinin sözlərinə görə, F.Məmmədovun vəzifədən çıxdıqdan sonra həm Bakıda rəsmi orqanlarda qarşılaşacağı bir çox sualları cavablandırmaqdan qaçmaq, həm də vergi adı ilə əvvəlcədən külli-miqdarda pul ödətdirdiyi iş adamlarının tələblərindən yayınmaq üçün “xəstələnib”. Bildirilirdi ki, F.Məmmədov “Bakıda özü ilə bağlı ”suların durulmasını", hamının yadından çıxmasını gözləyir".

Dövlət başçısının yanvar müşavirəsində F.Məmmədovun əməllərini yenidən yada salması həm də o deməkdir ki, sabiq nazirin xəstəliyi onun günahlarını azaltmayıb və prezident onu bağışlamayıb. Onu da yada salaq ki, uzun illər ölkənin ən iri məmur-oliqarxları sırasında ilk üçlükdə olmuş F.Məmmədovun hələ də böyük biznes imperiyası var.

❑ **ORXAN,**
**“Yeni Müsavat”**

# Deputat Mehman Hüseynovun azad edilməsinin yollarını açıqladı

## Fərəc Quliyev: “Bəziləri qrant ələ keçirmək üçün bunu fürsət bilib hərəkətə keçirlər...”

**Həbsdə olan gənc bloger Mehman Hüseynova qarşı əlavə maddələrlə cinayət işinin açılması məsələsi hələ də gündəmdədir. Son olaraq, onun Azərbaycan KİV-lərinə müraciət etməsi və Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin müraciəti əsasında bir sıra Avropa İttifaqı ölkələrinin səfirliklərinin məsul diplomatlarının təcridxanada onunla görüşmələri müzakirələrə yol açıb. Görüşdə Aİ-nin Bakı nümayəndəliyinin rəhbərinin müavini, Fransa, Hollandiya, Böyük Britaniya, Çex Respublikası və Almaniya səfirliklərinin əməkdaşları iştirak ediblər.**

Gənc bloger ətrafında yaranan müəmmalardan biri onun barəsində cinayət işi açılmasına baxmayaraq, hələ də məhkəmə önünə çıxarılmamasıdır. Bu müəmmalı vəziyyətə M.Hüseynovun vəkili Şəhla Hümbətova “Yeni Müsavat”da bu cür aydınlıq gətirdi: “Hazırda istintaq gedir. Qanunvericiliklə bu şəxs barəsində 3 marta qədər qətimkan tədbiri seçilib. İstintaq müddətində o həbsdə qalmalıdır. Ondan sonra hər şey istintaqın gedişindən asılı olacaq. Bəri başdan mən nəsə deyə bilmərəm. Çünki elə bir vəziyyətdir ki, heç kəs heç nə deyə bilməz. Mehman Hüseynovun özü ilə bağlı bütün açıqlamaları onun ailə üzvləri verir. Bizim razılaşmamız belədir”.

Qeyd edək ki, M.Hüseynova əlavə cinayət işi açılan kimi ölkə daxilində və xaricində bəzi qüvvələr dərhal hərəkətə keçib. Bəyanatlar bir-birinin ardınca gəlməyə başlayıb. Xüsusilə, bəzi beynəlxalq qurumlar mövcud vəziyyətdən gen-bol istifadə etməyə cəhdlər edir. Ölkə daxilində də bəzi qüvvələr bunu bir fürsət bilib. Gənc blogerin keçirdiyi ağır günlər, onun gənclik həyatı bir tərəfdə qalıb, fürsətcil qüvvələr bunları unudub öz şəxsi maraqlarını daha çox önə çəkdilər.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev



məsələnin həll yollarından danışdı: “Mən də həbsdə olmuşam. Allah həbsdə olanların hamısının qapısını açsın. Amma bir şeyi deyim. Mehmanın yaxınlarına da tövsiyə etmişdim ki, ondan bir alət kimi istifadə etməsinlər. Bəziləri qrantlar ələ keçirmək üçün bunu fürsət bilib hərəkətə keçirlər, xaricdən söyüş kampaniyası təşkil olunur. Bunlar yersiz məsələlərdir. Hesab edirəm ki, media kapitanlarının, ziyalıların, Mehman ailəsinin müraciəti əsasında bu məsələni həll etmək lazımdır. Mən də düşünürəm ki, məsələni böyütməyə dəyməz. Mehman bir müddətdir həbsdədir və onun azad edilməsi üçün addımlar atmaq mümkündür. Mövcud vəziyyətdən beynəlxalq qurumlar, dövlətlər süni şəkildə ajiotaj yaratmağa çalışır. ”Avronest"də elə bir sual qoymuşdum ki, insan hüquqlarını müdafiə edən ATƏT və başqa təşkilatlar nə üçün Kəlbəcərdən girov götürülmüş və zod mədənlərində işlədilən yüzlərlə Azərbaycan qadınının azad edilməsi üçün işlər görmür? Həm girov götürülənlərin sayını, həm də ünvanı göstərmiş, onların azad edilməsini tələb etmişdim. Bununla bağlı heç bir tədbir görmədilər. İndi guya Azərbaycanda bir nəfərin hüquqi pozulub deyə hay-küy salırlar. Əlbəttə, mən ölkəmizdə bir nəfərin belə hüquqlarının pozulmasını istəmirəm. Mehman məsələsindən, eləcə də, digər bu kimi məsələlərdən istifadə etməyə çalışanlara fürsət vermək lazım deyil. Söyüş kampaniyasından, bəzi şəxslərin qrant əldə etmək üçün Mehmanı əldə alət etmələrindən deyil, media kapitanlarının, jurnalistlərin, ziyalıların, lap lazım gələrsə, deputatların müraciəti ilə bu məsələni həll etmək lazımdır".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# “Yenə aylardan qasım”, “temmuz isə bir başqa”



**Samir SARI**

**Bu ölkədə deputatlara xüsusi münasibət var. Özü də bu, onların xeyrinə olan münasibət deyil, əksinədir.**

Bu xüsusatın nədən qaynaqlandığını uzun-uzadı təhlil edib dəqiqliyə yaxın nəticə əldə etmək mümkündür, fəqət gərək lap uzaqdan, sovet dövrü deputatlarının fəaliyyətindən başlayaq, 4-5 çağırışdan olan seçilmişlərin fəaliyyətinə nəzərə salaq. Bu isə, çox uzun söhbət olar. Həm də gerçəkliyi dəyişməz.

Gerçəklik isə bundan ibarətdir: eyni fikri tanınmış bir yazıçı və elm adamı (bu şərtlə ki, deputat olmasınlar) desə, buna o qədər də reaksiya verən olmayacaq, amma deputat desə, hoydu-hoyduya götürəcəklər.

Buna dair birnəfəsə qırx yeddi misal gətirmək olar. Az qala hər gün və ya günaşırı biz hansısa deputatın hansısa bir ifadəsi ətrafında ajiotaj qoparıldığını görürük. Bəzən dilə-dişə düşməməyin dərdindən onlar susur, danışmaq istəmirlər. Amma bu dəfə də “susqun deputatlar”, “lal millət vəkilləri” seriyasından yazılarının, statusların, şərhlərin dalı açılır.

Bizim yanvar-fevral, iyun-iyul, oktyabr-noyabr kimi tanıdığımız ayların adlarının milliləşdirilməsinə dair ilk təklifi deputat Tahir Kərimli səsləndirməyib. Bəlkə də o, bənzər təkliflə çıxış edən şəxslərin ilk onluğuna belə düşmür. Ancaq göründüyü kimi, bu saat cənab deputatın adı dillərdə dastan olub. Daha nələr yazmırlar, nələr demirlər...

Belə ajiotaj yalnız hansısa məşhur adamın ekrana-efirə çıxaraq, “gəlin Qarabağı erməniyə verək” təklifi ilə çıxış etdiyi halda yarana bilərdi. Bunun yanında ayların adını dəyişdirmək təşəbbüsü nədir ki? Əyləncəli bir şeydir.

Bir çox ölkələr var ki, məhz elə edir, ayların adlarını milliləşdirirlər və bu, heç də dünyada çöçün qarşılanmır. Məsələn, qardaş Türkiyədə yanvar ayına “ocaq”, fevrala “şubat”, aprelə “nisan”, iyuna “haziran”, iyula “temmuz”, sentyabra “eylül”, noyabra “kasım” deyirlər, dünya dağılmır ki... Hələ mahnı da qoşurlar: “Yenə aylardan qasım”, “temmuz isə bir başqa” və s.

Prinsipcə, biz də edə bilərik (müəllif ayların adlarına dair öz versiyası az sonra açıqlayacaq).

O vaxt qardaş Türkmənistanda prezident Saparmurat Türkmənbaşı götürüb ayların hamısının adını milliləşdirdi, heç kim çaş-baş qalmadı və bir kəsin də hünəri çatmadı ki, ayların adlarına dair öz variantını irəli sürsün.

Beləcə, “ay adları” islahatından sonra Türkmənistanda aylar belə adlanır: Türkmənbaşı (yanvar), Bayraq (fevral), Novruz (mart), Qurbansultan (aprel), Məhdumqulu (may), Oğuz (iyun), Qorqudata (iyul), Alparslan (avqust), Ruhnamə (sentyabr), Qaraşsızlıq (oktyabr), Sultansəncər (noyabr), Bitaraflıq (dekabr).

Göründüyü kimi, bu aylardan yalnız ikisi - Türkmənbaşı və Qurbansultan ayları mərhum prezidentə aiddir (Qurbansultan Niyazovun mamasının adı olub), yerdə qalanları isə qayət məntiqli adlardır. Məsələn, böyük şair Məhdumqulu Fəraqini hamımız tanıyırıq. Filmi də var. Sultan Səncər isə demokratik yolla seçilmiş legitim padşah olub. Qorqud ata da bildiyimiz Dədə Qorquddur.

Yeri gəlsə, biz də elə edə bilərik. Nə vaxta qədər aylarımız romalı allahların adıyla adlanacaq? Bəs deyilmi? (Ura-ura-ura).

Ancaq bu, elə məsələdir ki, ayların adıyla bağlı ortaq məxrəcə gəlmək mümkün deyil. Heç 10 milyonluq ölkəni götürmürəm, 40-50 işçisi olan redaksiyamızdan ayların adlarına dair azı 70 variant çıxa bilər. Maşallah, xalqımız bu xüsusda çox istedadlıdır. Elə bu iş də futbol və siyasət kimi hamının bildiyi kateqoriyadandır.

Məndən olsa aylarımızın adları belə olar: yanvar (Daşaltı), fevral (Xocalı), mart (Xankəndi), aprel (Kəlbəcər), may (Şuşa-Laçın), iyun (Ağdərə), iyul (Ağdam), avqust (Füzuli-Cəbrayıl), sentyabr (Qubadlı), oktyabr (Zəngilan), noyabr (Qarakənd-vertoloyot), dekabr (Araz-məftil).

Bu, əlbəttə, patriotik prizmadan tərtib edilmiş siyahıdır. Milli faciə günlərini bir kənara qoysaq, aylara gərək başqa adlar verək. Məsələn, başqa adları deyə bilmərəm fevralın adını Qar ayı, iyulunkunu isə “Kondisionerlərin yüz manatlıq işıqpulu yazdığı ay” qoymaq olar. Düzdür, bir az uzun çıxır, amma gerçəkliyi əks etdirdiyinə söz yoxdur.

Belə baxanda isə nə gərək var? Qoy hamısı qalsın qaldığı yerdə. Bir şey ki, mübahisə düşəcək, qan (söyüş) su yerinə axacaq, qanqaraçılıq olacaq.

Hələ bunun yeni adlara öyrəşmək kimi müşkülü var. Budur, 100 ildir “iyun”la “iyul”u dəyişik salırıq...

Tahir Kərimliyə isə eşq olsun, hərdən camaata müzakirə, jurnalistlərə yazı mövzusu verir.

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019



# Niyə vətəndaş olmaq istəmirik?!

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Keçən həftə Sumqayıta gedərkən redaktorumuz Azər Ayxan maşını yeni istifadəyə verilən Böyük Şor yolundan sürdü. Ümumi mənzərə ürəyimizi açdı. Dünənə qədər çirkin, pasın içərisində olan göl təmizləmib, ortasından gözəl yol çəkilib, məsafə xeyli qısaldılıb.**

Bu xoş əhvalla getdiyimiz yolu geri dönəndə isə üzləşdiyimiz mənzərə bizi az qala peşman elədi. Təsəvvür edin, Novxanı istiqamətindən qum yüklənmiş bir yük maşını yolu rəsmən qumlaya-qumlaya şütüyürdü. Küləkli hava, yük yerində narın qum, mənzərə hər birinizə aydındır yəqin.

Rəsmilər daim yük maşınları ilə bağlı xəbərdarlıq edirlər. Hətta cəzalar da nəzərdə tutulub. Qumun üstü örtülsə, ya üstünə su səpilsə ətraf toz-dumana bürünməzdi. Yolların çəkilməsinə bu qədər vəsait xərclənir, biz niyə o yolun qorunması üçün gərəkəni etmirik? Yetərdi ki, həmin sürücüdə vətəndaş məsuliyyəti olsun. Pul qazan, amma digərlərinə zərər vurmaq, yolu dağıtmaq hesabına yox!

İndi də oxuyuram ki, Qubada ceyran ovlayan şəxs saxlanılıb. Hansı ki, uşaqdan-böyüyə ceyranı nəinki zooparkda, hətta televizorda görəndə onun gözəlliyindən məst oluruq. Adam nə qədər insafsız olsun ki, belə bir gözəlliyə əl qaldırsın. Quba polisi ceyran ovçusunu saxlayıb, qarşısında da bir torba ət. Bu adam guya o 3-5 kilo əti yesə nə olacaqdı, yeməsə nə? Amma həmin ceyranla bir fotosu ona şöhrət gətirərdi, yaxud minlərlə insan o canlıdan zövq alardı. İndiki halda isə özünü də rəzil hala saldı.

Dekabrda da Qəbələ rayonunda adı Azərbaycanın "Qırmızı Kitabı"na düşən maralı ovlayan şəxs saxlanılmışdı. Ondan əvvəl ayı ovçuları, dağ keçisi qənimləri tutulmuşdu... Sanki adamlarımız təbiətə qənim kəsilib. 1961-ci ildə ölkə ərazisində 131 baş ceyran qeydə alınıbmış. İndi onların sayı minlərlədir. Bu gözəl canlılar ona görə qorunmayıb ki, könlünə ceyran əti düşənlərin hədəfi olsun. Azərbaycandakı ceyranlardan hələ XVII əsrdə alman səyyahı və alimi Adam Oleari yazmışdı. Düzdür, o vaxt da ceyranlar ətinə və göbəyindən alınan müşkə görə məhv edilirdi. Amma axı, indi başqa zamandır, göyə peyk buraxırıq, bahalı maşınlarda gəzirik...

Ola bilər kimlərisə "ayı kababı" söhbəti həvəsləndirib. İstənilən halda cinayətdir və bəlalərinə dərs verilməlidir!

Bir ara ərəblər ölkəmizə axın edəndə üz tuturdular Muğan düzünə, çiyinlərində şahin. Ov ovlayıb, quş quşlayırdılar. Kimlərsə öz maraqları naminə nadir quş və heyvanların ovlanmasına şərait yardırdılar. İndi onların ayağı kəsilib, özümüz ova girişmişik.

Turizmə dövlətin önəm verdiyini hər kəs bilir. Canlı təbiət turizmin inkişafında önəmli rol oynayır. Turist üçün Azərbaycanda gördüyü ceyran, cüyür, maral yaddaqalan olacaq, onun kababını dişə çəkməsi yox. Bunu anlamaq lazımdır.

Biz nəhayət etdiklərimizin fərqinə varmalıyıq, düşünməliyik ki, necə olur Avropada qoruqdakı ceyran insana yaxınlaşıb, əlindən yemək yeyir, amma bizim ölkədə insanlardan hürküb xilas olmaq istəyir?

Bir sıra hallarda təbiət həm də bizdən intiqam alır. Məsələn, ölkəmizin az qala hər yerindən sürüşmə, şoranlaşma xəbərləri gəlir. Ekologiyaya vurduğumuz zərbənin cavabını alırıq. Nə qədər ağac kəsmək, nə qədər torpaq daşımaq, nə qədər çay yataqlarını, dəniz sahillərini qazmaq olar? Sevgili Vətən torpağı bir gün etdiklərimizin cavabını verməliydi təbii ki...

Sadaladığım faktlar nədir ki? Binaların ətrafındakı ağacları kəsən, gecə yarı keçəndən sonra zibil dolu sellofanları aşağı tolazlayan, liflərin düymələrini yandıran, təzə ağardılmış divarı öz yazıları ilə "bəzəyən", çəkdiyi siqaretin kötüklərini zibilqabına yox, elə oturduğu skamyanın altına tolazlayan... Siyahı uzundur.

Təəssüf ki, belələri də Azərbaycan Respublikasının vətəndaşı olaraq bütün hüquqlara malikdir, bu dövlətin ona verdiyi imtiyazlardan istifadə edir, bəhrələnir, bəzi hallarda haray salırlar hansısa məsələlərə görə. Amma Vətənə addımbaşı zərər vurmaqdan sanki zövq alırlar. Bax, o qumdaşıyan, ceyran, maral ovlayan, yuxarıdan aşağı zibil tullayanlar kimi. Məşhur bir filmimizdə "Niyə müsəlman olmaq istəmirsən" epizodu var.

Müsəlman olmaq bir yana, bizdə bəziləri vətəndaş olmaq istəmir. Demirik ki, Vətən daşı olsunlar, heç olmasa Vətənə addımbaşı zərbə vurmasınlar, balta çalmasınlar. İnsanlarımız dəyişməlidir. Əks təqdirdə Ekologiya Nazirliyinin meşələrə videokamera yerləşdirməsinin heç bir mənası olmayacaq...



# Prezident struktur islahatlarının anonsunu verdi: Hansı nazirliklər və komitələr ləğv ediləcək?

## Xeyli sayda qurumun ləğv edilərək bir nazirlikdə birləşdirilməsi haqda təkliflər var; kommunal xidmətlərin isə özəlləşdirilməsinin vacibliyi vurğulanır

**Azərbaycanda dövlət idarəetmə orqanlarında ciddi struktur islahatları gözlənilir.**

Belə ki, prezident İlham Əliyev Nazirlər Kabinetinin yanvarın 11-də keçirilən iclasında bununla bağlı ciddi anons verib. Prezident daha çevik idarəetmə strukturunun yaradılması ilə bağlı işlərə başlanacağını bildirib: "İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər".

Ölkəmizdə dövlət idarəetməsində hansı struktur islahatlarına, hansı qurumların birləşdirilməsinə və ya ləğvinə ehtiyac olması ilə bağlı ekspertlərin də maraqlı yanaşması və təklifləri var.

İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a mövzunu şərh edərkən deyib ki, dövlət başçısının söylədiyi fikirləri tam dəstəkləyir: "Bizim hazırkı idarəçilik strukturu ölkə başçısının da dediyi kimi, günün tələblərinə, standartlara cavab vermir. Azərbaycan kiçik bir ölkədir, burada bu qədər bir-birini təkrarlayan, təxminən eyni istiqamətdə fəaliyyət göstərən dövlət qurumlarının olmasına ehtiyac yoxdur. Dövlət başçısı da vurğulayır ki, daha çevik və effektiv idarəçilik qurulmalıdır. Nazirliklərin, komitələrin və agentliklərin sayı azaldılmalıdır. Xarici təcrübədə də bu cür qurumların sayı azdır".

Ekspertin fikrincə, dövlətin ən vacib strukturu olan maliyyə blokunda bir neçə oxşar strukturları Maliyyə Nazirliyinin tərkibində birləşdirmək lazımdı: "Həmin qurumlar Maliyyə Nazirliyinin tərkibində bir departament kimi fəaliyyət göstərsələr, daha məqsədə uyğun olar. Dövlət Sosial Müdafiə Fondunu da ya Maliyyə Nazirliyinin tərkibinə, ya da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibinə birləşdirmək mümkündür".

Ə.Həsənovun fikrincə, Dövlət Neft Fondunu Mərkəzi Bankın tərkibinə vermək lazımdı: "Mərkəzi Bankın digər fəaliyyət istiqamətləri də var, ancaq faktiki Neft Fondunun gördüyü işi də görür. Bu baxımdan Neft Fondunu ləğv edib onun aktivlərinin idarəedilməsini Mərkəzi Banka vermək olar".

"Bu cür paralel strukturların olması dövlət büdcəsinin xərclərinə necə təsir edir" sualına gəlincə, müsahibimiz bildirdi ki, ilk növbədə bu qurumların hər birinin inzibati binası və onun saxlanılma xərcləri var: "Bundan əlavə, hər qurumda kadrlar idarəsi, hüquq idarəsi, mətbuat xidməti, xarici səfərlər, ezamiyyə xərcləri və sair var ki, bütün bunlar lazımsızdır. Diasporla İş üzrə Dövlət Komitəsini də Xarici İşlər Nazirliyinə vermək lazımdır. Azərbaycan o qədər böyük ölkə deyil ki, ona xarici siyasətdə bir neçə qurum lazım olsun. Bu komitə Xarici İşlər Nazirliyinin bir departamenti ola bilər. Onsuz da bizim hər bir ölkədə səfirliyimiz var. Təsəvvür edin ki, ABŞ kimi böyük ölkənin belə bir komitəsi yoxdur. Xarici İşlər Nazirliyi bütün bu işləri həyata keçirir. İki istiqamətdə hərəsi öz xətti ilə xarici ölkələri gəzirlər, onların illik aviaxərclərini, ezamiyyət xərclərini ixtisar eləsək, dövlət büdcəsinə faydalı olar".

Əkrəm Həsənov deyir ki, iqtisadi blokda 3 nazirlik var ki, hər biri iqtisadiyyatla məşğuldur: "İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Energetika Nazirliyi. Bunların hamısını İqtisadiyyat Nazirliyində birləşdirmək daha məqbuldur".

"Ancaq qeyd etdiyiniz nazirliklərdə çox uğurlu kadrlar var" fikrinə Ə.Həsənov belə cavab verdi: "Bəli, mən xüsusi vurğulamaq istəyirəm ki, burada söhbət kadrlardan, yeni nazirlərdən getmir. Məsələn, kənd təsərrüfatı naziri haqqında çox yüksək fikirdəyəm. Hesab edirəm ki, belə bir birləşdirilmiş nazirliyə məhz o, daha çox layiqdir. Demək istədiyim odur ki, adını çəkdiyim bütün nazirliklərdə söhbət nazirdən deyil, strukturdan gedir. Birləşdirilmiş nazirliyə kimin başçılıq edəcəyi başqa bir mövzudur. Bu, ölkə prezidentinin səlahiyyətində olan bir məsələdir. Sadəcə biz ekspert kimi təkliflərimizi səsləndiririk. İqtisadiyyat Nazirliyinə hətta Dövlət Əmlak Komitəsini də birləşdirmək olar. Vaxtilə Əmlak Komitəsi elə İqtisadiyyat Nazirliyinin tərkibində idi".

Ekspert bildirir ki, dövlət ali məktəbləri də həddindən artıq çoxdur: "Hər bir nazirliyin nəzdində özünün ali məktəbi var. Neftlə bağlı həm Neft Akademiyası, həm də Ali Neft Məktəbi var. Hamısı dövlət üçün əlavə xərcdir. Bunları birləşdirmək lazımdır. Hər dövlət orqanının nəzdində ayrıca ali məktəbə ehtiyac yoxdur".

Ə.Həsənovun fikrincə, Ombudsman Aparatı özünü doğrultmayan bir dövlət qurumu kimi ləğv edilməlidir, çünki heç bir fəaliyyəti yoxdur: "Əgər məhkəmə sistemini möhkəmləndirsək, Ombudsmana da ehtiyac olmaz. Bu da dövlət üçün əlavə xərcdir".

Əkrəm Həsənov struktur islahatlarının bir qolu kimi "Azərişıq", "Azəriqaz", "Azərsu" kimi qurumların özəlləşdirilməsinə münasibət bildirərkən deyib ki, bu sektorda da özəlləşdirməyə ehtiyac var: "Beynəlxalq təcrübə belədir ki, su, qaz, işıq və sairin istehlakçıya çatdırılması ilə özəl şirkətlər məşğul olmalıdırlar. Doğrudur, neftin, qazın, elektrikin istehsalı ilə dövlət şirkətləri məşğul olurlar. "Azərenerji", Dövlət Neft Şirkəti və sair, bu, normaldır. Ancaq onu istehlakçıya özləri satmamalıdırlar. Çünki kommunal xidmətlərin satışı ilə məşğul olan qurumlar dövlət büdcəsi üçün çox böyük yükdür və burada effektiv idarəetmə yoxdur. Xarici təcrübə artıq bunu göstərir ki, kommersiya mahiyyəti olan qurumlar dövlət qurumu kimi fəaliyyət göstərəndə orada daim yeyinti, israfçılıq olur. Çünki rəhbərlik ona öz malı kimi baxmır. Ancaq bu özəlləşdirmə prosesi ikinci mərhələdə həyata keçirilmədir. Bütün bu islahatları eyni vaxtda aparmaq dövlət idarəetməsi üçün problem yarada bilər".

❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019

**Hacı Qalib Salahzadənin Bilgəhdə yolu qanunsuz olaraq bağlaması, vətəndaşlar Seymur Quliyev, Ələkbər Quliyev və Nurid Əliyevin bağ evlərini dağıtması ilə bağlı araşdırmalar davam edir. 2018-ci ilin oktyabrında Baş Prokurorluq eks-deputat Qalib Salahzadənin qanunsuz olaraq bağladığı yolun açılması üçün Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova məktub ünvanlayıb.**

# Hacı Qalib Kardioloji Sanatoriyanın ərazisini də zəbt edib

## "O, sanatoriya ilə öz bağının arasındakı hasarı götürüb və orada diskoteka düzəldib; araq, çaxır, pivə verirlər, səhərə qədər çalıb-oynayırlar"...



Məktubda Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Aslan Salahzadə küçəsi döngə 21, ev 2, ev 1 ünvanlarına və dəniz çimərliyinə gedən yolun açılmasının təmin edilməsindən bəhs olunur. Məktubun yazılmasına səbəb Bilgəh qəsəbə sakinləri Seymur Quliyev, Nurid Əliyev və 35 vətəndaşın imzası ilə Baş Prokurorluğa ünvanladıqları müraciətdir. Müraciətdə deyilir ki, sabiq deputat Qalib Salahzadə yolu kəsərək dəmir darvaza qoydurub və şlaqbaum quraşdırıb. Yola maneələr qoyub. Vətəndaşlar xahiş ediblər ki, həmin maneələrin götürülməsi üçün əməli tədbirlər görülsün. Məktubda icra müddəti 1 ay göstərilib. 3 ay əvvəl icra edilməli olan məsələ hələ də həll olunmamış qalıb. Ötən şənbə Daxili İşlər Nazirliyi (DİN) İstintaq İdarəsinin Ağır Cinayətlərin İstintaqı İdarəsinin istintaq qrupunun əməkdaşları, Dövlət Reyestr Xidmətinin nümayəndələri və zərərçəkənlərlə birgə növbəti dəfə əraziyə gediblər. Ötən dəfə Qalib Salahzadə eyni tərkibli qrupu əraziyə buraxmaqdan imtina etmişdi. Demişdi ki, əraziyə məhkəmə qərarı olmadan kimsəni buraxmayacaq. Sonuncu araşdırma zamanı isə tərkibin əlində məhkəmə qərarı da olub. Qalib Salahzadənin gələnləri əraziyə buraxmaqdan başqa yolu qalmayıb. Bu haqda "Yeni Müsavat"a məlumat verən zərərçəkən Seymur Quliyev deyib ki, Dövlət Reyestr Xidməti nümayəndələri ərazidə müvafiq ölçmələr aparıblar. Nurid Əliyevin, Seymur Quliyevin bağ sahələri ilə yanaşı yaxınlıqdakı Qalib Salahzadənin bağ sahəsinin və ərazidəki evinin də ölçülərini götürüblər: "İstintaq qrupunun əməkdaşları bir daha gördülər ki, yolu bağlayan Hacı Qalibdir. Onun yanında adamlar vardı, onlara göstəriş verdi, dövlətin yoluna qoydurduğu darvazanı açdılar. Dövlət Reyestr Xidməti nümayəndələri orada 4 saat ölçmə işləri apardı. Elə həmin ölçmələr zamanı aydın oldu ki, Hacı Qalib dövlətə məxsus Kardioloji Sanatoriyanın 5 sota yaxın ərazisini də öz torpağına qataraq, mənimsəyib. Sanatoriya ilə onun bağının ərazisindəki hasarı götürüb və orada diskoteka düzəldib. Yayda həmin diskotekada araq, çaxır, pivə verirlər, səhərə qədər çalıb-oynayırlar. Həmin ərazidə soyunma-geyinmə otaqları, duş kabinələri, kölgəliklər düzəltdirib. Nümayəndələr nə gördülərsə, hamısını qeydiyyata aldılar. Elə orada məlum oldu ki, Hacı Qalibin zəbt edib darvaza qoydurduğu küçənin adını da dəyişiblər. Əvvəllər həmin küçə onun atasının adını daşıyırdı. Aslan Salahzadə küçəsi idi. İndi isə küçənin adı Qələbə küçəsidir. Bir daha təsdiqləndi ki, həmin küçə ümumi dövlətin yoludur. Onu heç kim bağlaya bilməz".

Seymur Quliyev deyib ki, onlar ərazidə 4 saat olublar və oradan çıxandan sonra hacı Qalib ümumi istifadə olan Qələbə küçəsini keçilməz duruma salan darvazanın bağlanmasına göstəriş verib: "Bu adam demonstrativ şəkildə dövlətin yolunu bağlayıb və açmır. Bakı Şəhər İcra Hakimiyyəti aylardır ki, darvazanın yoldan götürülməsini və yolun açılmasını təmin edə bilmir".

Xatırladaq ki, Qalib Salahzadə istintaq orqanında vətəndaş Seymur Quliyevin 3 və 2 mərtəbəli evlərinin yerlə bir olunması, evlərin talan edilməsi, evlərdən əşyaların oğurlanması, həyətdəki ağacların, su quyusunun dağıdılması işi üzrə dindirilib. Bundan başqa, sabiq deputat saxta sənədlə Bilgəh qəsəbəsində bağ torpaq sahəsi satmaqda iştirakçılıq işi üzrə də ifadə verib. Fakt üzrə Cinayət Məcəlləsinin 186-cı - əmlakı qəsdən məhv etmə və ya zədələmə və 188-ci - torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma maddələri ilə cinayət işi davam etdirilir. İş üzrə Cinayət Məcəlləsinin 259-cu - qanunsuz ağac kəsmə və 320-ci - rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə maddələri ilə də araşdırma aparılır. Yada salaq ki, 2018-ci ilin aprelində şikayətçi Seymur Quliyev və Nurid Əliyevin əmlaklarının dağıdılması ilə bağlı Baş Prokurorluqda cinayət işi başlanıb. İş materialları istintaq olunmaq üçün Daxili İşlər Nazirliyi İstintaq İdarəsinə göndərilib. Seymur Quliyevin sözlərinə görə, Hacı Qalib Salahzadə iş üzrə bir neçə dəfə dindirilib və onunla üzləşdirilib.

Seymur Quliyev deyir ki, Hacı Qalib Salahzadə Milli Məclisin deputatı olduğu dövrdə vətəndaş olaraq onun mülkünü zəbt etməklə qanunları saymadığını ortaya qoyub.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Eldar Mahmudovun revanşı

## Sabiq nazir həbsdəki əmisi oğlunun azadlığa çıxması üçün hərəkətə keçib

**Azərbaycanın sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov köməkçisi olmuş - əmisi oğlu Vüqar Mahmudovun ən yüngül cəza ilə azadlığa çıxması üçün hərəkətə keçib. "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, sabiq nazir köhnə əlaqələrini işə salaraq Vüqar Mahmudovun nəticə etibarı ilə məhkəmənin mümkün ən yüngül cəzası ilə cəzalandırılmasına çalışır. İddiaya görə, sonrakı mərhələdə isə Vüqar Mahmudovun şərti cəza ilə azadlığa çıxması ssenarisi nəzərdən keçirilir.**

Vüqar Mahmudov 2017-ci ilin noyabrında həbs edilib. Vüqar Mahmudov ləğv edilmiş MTN-in Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsini tutub. De-fakto isə nazirin köməkçisi və "qara kassası" funksiyasını həyata keçirib. Polkovnik-leytenant Vüqar Mahmudov həmin nazirliyin vəzifəli şəxsləri barəsində Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq olunan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilib. İlkin olaraq ona Cinayət Məcəlləsinin 179.3.1-ci (mütəşəkkil dəstə tərəfindən mənimsəmə və ya israf etmə), 179.3.2-ci (külli miqdarda mənimsəmə və israf etmə), 182.3.1-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 182.3.2-ci (külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu yolu ilə tələb etmə), 341.2.1-ci (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə) maddələri ilə ittiham elan olunub. Vüqar Mahmudovun barəsində 2017-ci il noyabrında Bakı Hərbi Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib. Sonradan müddət bir neçə dəfə artırılıb. Bu ilin iyununda ona qarşı əlavə ittihamlar irəli sürülüb. Yada salaq ki, "MTN" işi üzrə zərərçəkən kimi tanınanlardan biri, iş adamı Maqsud Mahmudov "Yeni Müsavat"a açıqlamasında Vüqar Mahmudovu ondan şəxsən 170 min dollar almaqda ittiham edirdi.




V.Mahmudovun adı "Karvansaray" ticarət mərkəzinin payçılarının əlindən alınmasında da keçirdi. Payçılardan biri olmuş Elşən Kərəm "Yeni Müsavat"a bu haqda demişdi: "Karvansaray" ticarət mərkəzini Nizami Quliyev tikdirirdi. Biz də ətrafında olan payçılardan idik, ora pul qoyurduq. Eldar Mahmudov Akif Çovdarovu, Hilal Əsədovu üstümüzə göndərib əvvəlcə 20 dükan istədi. Sonradan 40 dükan aldı. Sonra isə Nizami Quliyevi 8 ay MTN-ə hər gün çağırıb üstünə qışqırır, başına oyun açırdılar. Hər gün səhər 7-də MTN-ə çağırırdılar. Saat 10-a qədər orada gözlədirdilər. Keflərinə düşəndə qəbul edib kabinetdə təhqir edir, söyürdülər, yayın ortasında kondisioneri maksimal istiliyə qoyub kabinetdən çıxırdılar. Bunu küçədə 40 dərəcə isti olanda edirdilər. Qapı bağlı olduğundan Nizami Quliyev həmin kabinetdən çıxa bilmirdi. Bütün bu işgəncələrdən sonra Nizami müəllim "Karvansaray"ın təsisçiliyindən imtina etdi. Ticarət mərkəzi Eldar Mahmudovun əmisi qızı Dilrübə Məhəmməd qızı İmranovanın adına keçirildi. Nizami müəllim Eldar Mahmudovun ona yaşatdığı dəhşətlərin sonucu olaraq ağır xəstəlik tapdı. 2016-cı ilin iyununda dünyasını dəyişdi. Bizə ən böyük pisliyi edən Eldar Mahmudov, onun ətrafı olub".

Eldar Mahmudovun köməkçisi və əmisi oğlu Vüqar Mahmudovun adı "MTN işi"ndə bir çox epizodlarda hallanırdı. General Elçin Quliyevin məhkəməsində də o ifadə vermişdi. Eldar Mahmudovla qohumluq əlaqələrindən danışarkən isə "Eldar Mahmudov nazirim və əzizim olub" demişdi. Vüqar Mahmudovun barəsində seçilmiş həbs qəti-imkan tədbirinin müddəti 2019-cu ilin fevralında sona çatacaq. Mümkündür ki, həmin müddət bitənə yaxın iş üzrə istintaq yekunlaşacaq və iş məhkəməyə göndəriləcək.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**




# Gürcüstanda qripdən daha bir nəfər öldü

**Tiflisdə 26 yaşlı gənc qadın qrip virusunun qurbanı olub. O, Tiflisdəki Quduşauri Milli Tibbi Mərkəzində müalicə edilirdi. Bu barədə jurnalistlərə Gürcüstanın Xəstəliklərə Nəzarət Milli Mərkəzinin direktoru Amiran Qamkrelidze məlumat verib.**

Onun sözlərinə görə, qadın bir neçə gün öncə dünyaya uşaq gətirib. Hələlik onun H1N1 (donuz qripi) virusundan ölməsi laboratoriyada təsdiq edilməsə də, həkimlər qadının qripdən müalicə olunduğunu bildiriblər.

AzərTAc xatırladır ki, Gürcüstanda son bir ayda 15 nəfər donuz qripindən həyatını itirib. Mütəxəssislərin fikrincə, onların ölümünə əsasən həkimə gec müraciət etmələri səbəb olub.

Gürcüstanın səhiyyə naziri David Sergeyenko bildirib ki, bu gün ölkə xəstəxanalarında 640 nəfər qrip virusundan müalicə alır. Onlardan 42-si reanimasiya şöbəsindədir. Həmin xəstələrin müalicə xərclərini dövlət öz üzərinə götürüb.

**Onu şəxsən tanıyanda düz 60 yaşı vardı. Onadək qiyabi tanıyırdım, müsahibələrini oxumuşdum, bir də barəsində yaxşı sözlər eşitmişdim: "Vətənpərvərdir", "Hüquq sahəsində peşəkardır", "Xeyriyyəçidir", "Putinin tələbə yoldaşı və yaxın dostu olan yeganə azərbaycanlıdır" kimi fərəhləndirici ifadələrin söylənməsinə "qulaq şahidi" olmuşdum.**

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru



# Yalnız özü üçün yaşamayan 68 yaşlı professor

Heç şübhəsiz, artıq çoxlarınız bildiniz söhbətin professor İlham Rəhimovdan getdiyini.

Bu il yanvarın 14-də artıq 68 yaşını tamamlayır professor...

Psixoloqlar deyir ki, insanı ilk dəfə görüb tanıyanda, ünsiyyətdə olanda hansı təsiri bağışlayırsa, həmişəlik də yaddaşında elə qalır, sonralar daha fərqli keyfiyyətləri üzə çıxsa da. 2011-ci ildə İlham Rəhimovla ilk görüşümüzdə o, məndə son dərəcə səmimi, sözün yaxşı mənasında sadəliyi ilə seçilən bir şəxs və çox savadlı, humanitarlığı prioritet seçən hüquqşünas təəssüratı yaratdı.

Axı biz müəyyən mənsəb sahiblərinin belə səmimi, sadə davranışlara necə deyərlər, acıq! Hətta gəncliyimizdə bizimlə bərabər əsgər yoldaşı, tələbə yoldaşı, müxbir həmkarı olan onlarla yaxınlıq etdiyimiz insanlar olub ki, balaca bir vəzifəyə getdikdən sonra haradasa rastlaşanda yanından sanki səni tanımırmış kimi keçib gedib: üstəlik, bunlar o adamlardır ki, nə yüksək elmi nailiyyətləri var, nə milyonları, nə də adları "Forbes" jurnalında keçir.

Bu nailiyyətlərin daşıyıcısı olan İlham Rəhimov isə sanki səninlə illərin yaxını kimi səmimi davranır və sən onu artıq ilk ünsiyyətdən dost sayırsan özünə. Sonralar da yanılmadığını anlayırsan.

Demək bəlkə də yersizdir, hansısa dar məqamımızda umduqlarımız, zaman-zaman yaxşılıqlarımız keçən, uğrunda fədakarlıq etdiklərimiz zənglərimizə cavab vermədiyi halda, bu çətinlikdən xəbər tutduqda professor Rəhimov bir mesaj yollayıb: "Narahat olma, həll etdik"!

Bu, şəxsimizə münasibətdəki fərdi, dost davranışı ilə bərabər, onun xarakteridir. Məsələn, qəzetdə elanda rastına çıxır ki, hansısa bir körpənin, yaxud yetkin, amma çarəsiz birinin əməliyyata, yardıma ehtiyacı var. Həmən köməkçilərinə o körpəyə, yaxud da elə böyük adama yardım göstərmək haqda tapşırıq verir.

Xeyriyyəçilik əlbəttə, bir missiyadır. İlham Rəhimov da bu missiyanın daşıyıcılarındandır. Bildiklərimi sadalaya bilərəm yalnız: Bir neçə yüz ürək qüsurlu uşağı xaricdə əməliyyat etdirməsi, onlarla şəxsin digər səhiyyə xərclərini ödəməsi, onlarla tələbənin təhsil haqqını ödəməsi, bir neçə kəndə su çəkdirməsi, xəstəxana tikdirməsi, həkimlərə ikinci maaş verməsi yaddaşımda olanlardır. Əlbəttə, bilmədiklərim də xeylidir...

Elm sahəsindəki fəaliyyəti barədə isə əminliklə demək olar ki, o, hüquq elminə böyük töhfələr verib. Onun "Cinayət və cəzanın fəlsəfəsi" adlı kitabı elm adamları arasında geniş maraq doğurub. Bu səbəbdən dünyanın bir sıra dillərinə tərcümə olunub və hüquq ədəbiyyatı kimi mənimsənilir, universitetlərdə dərslik kimi istifadə olunur.

Qısaca qeyd edə bilərəm ki, kitabda cinayət hüququnun təməl problemlərindən bəhs olunur. Müəllif cinayətin mənbəyinə və səbəblərinə, eləcə də cəzanın məzmununa fəlsəfi mövqedən yanaşıb.

Bəlli, həyat əsasən fəlsəfə üzərində qurulduğundan cinayət və cəza məsələlərinə də bu aspektdən yanaşılması hüquq sahəsinin adamları üçün çox əhəmiyyətli materialdır...

Onun hüquq sahəsindəki nailiyyətlərinin ən yüksəklərindən biri də erməni zabitini öldürdüyünə görə Macarıstanda ömürlük həbs edilmiş Ramil Səfərovun ölkəmizə verilməsində, azadlığa çıxmasında göstərdiyi xidmətidir. Bunu Macarıstandakı diasporumuzun lideri Ramiz Əmirli də dəqiq bilir. O, proseslərin canlı şahididir...

Professorun özündən bu barədə dəfələrlə danışmasını xahiş edəndə təvazökarlıq edib, qısaca deyib: "Bu məsələni cənab İlham Əliyev həll edib, mən sadəcə prezidentimizin tapşırığı və razılığı ilə işin hüquqi tərəfləri ilə məşğul olurdum"...

Ümumən özü haqda, ölkəmiz adına, insanlarımız üçün gördüyü işlərdən danışmağı sevmir. Bir qayda olaraq təkcə özü üçün yaşamayan adamlar birinci şəxsin təkində danışmağı sevmir...

Yeri gəlmişkən, maraqlı cəhətlərindən biri də onu haqlı-haqsız tənqid edənlərə də qapısını açıq saxlamasıdır. 3 il öncə saytlardan biri onun barəsində haqsızcasına, qərəzli bir yazı dərc etmişdi. Bəs professor neylədi? Həmin yazının müəllifinə telefon açıb, görüşə çağırıb geniş müsahibə verdi. Jurnalistin bütün - hətta sərt suallarını da çox səbirlə, təmkinlə cavablandırdı.

Burada bir məqamı da qeyd edim: bəzən siyasi-ictimai çevrədə olan şəxslər qərəzli şəkildə, bəlkə də qərəzli deyil, bilməzlikdən İlham Rəhimov haqda "Rusiya prezidenti Vladimir Putinlə dostluğundan Azərbaycanın dövlət maraqları üçün istifadə edirmi" kimi iddialar səsləndirirlər.

Bunu dəqiq bilmək istəyirsinizsə, qərəzli deyilsinizsə, azacıq araşdırma aparın, heç nəyə də gücünüz çatmasa, gəlin özü ilə oturub səmimi bir söhbət edin, dövlət üçün hansı çabaları göstərdiyini, Rusiyadakı nə qədər soydaşımızın problemlərinin həllinə dəstək olduğunu biləcəksiniz...

Qısa şəkildə belə ifadə etmək olar onun ömür yolunu: Fəxr ediləsi bir soydaşımızdır İlham Rəhimov. Çox azdır belə insanlarımız. O, çoxlarından fərqli olaraq, yalnız özü üçün yaşamır. Qədrini bilək...

Təbrik edirəm, professor! Ürəyiniz istəyən qədər yaşayın!

# Maliyyə naziri ötən ilin iqtisadi artım göstəricilərini açıqladı, ekspertlər şərh etdi

## **Fikrət Yusifov:** "İqtisadi inkişafın bütün parametrləri müəyyən edilmiş strategiyaya tam uyğun şəkildədir"

**Maliyyə naziri Samir Şərifov ötən ili bir çox iqtisadi göstəricilər baxımından müsbət xarakterizə edib. Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən nazir bildirib ki, ötən il dünya bazarında bir çox iqtisadi şoklar yaşansa da, Azərbaycan iqtisadiyyatı bundan maksimum dərəcədə zərərsiz çıxmağa nail oldu: "2018-ci il, eyni zamanda, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, qlobal ticarətdə proteksionizmin və ticarət müharibələrinin vüsət aldığı bir zamanda xarici şokların ölkə iqtisadiyyatına təsirlərinin neytrallaşdırılması ili kimi də dəyərləndirilə bilər".**

Nazir qeyd edib ki, büdcə-fiskal siyasətin monetar siyasətlə sıx əlaqəli şəkildə həyata keçirilməsi nəticəsində il ərzində milli valyutanın sabitliyi qorunub, inflyasiyanın cilovlanmasına və ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz-bənd azalmasına nail olunub. Xarici ticarət balansındakı müsbət saldo tədiyə balansının cari əməliyyatlar hesabının 5 milyard ABŞ dollarına qədər, məcmu valyuta ehtiyatlarının isə ötən ilin əvvəlinə nisbətən 3,0 milyard ABŞ dolları məbləğində və ya 6,5 faiz artmasını şərtləndirib. 2018-ci ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları nəzərə alınmadan hökumətin valyuta ehtiyatları xarici dövlət borcumuzu 4,3 dəfə üstələməklə ümumi daxili məhsulun 83,5 faizini təşkil edib".

Maliyyə nazirinin səsləndirdiyi məlumata əsasən, 2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 35 milyon manat, xərcləri 26 milyard 334 milyon manat icra olunub. Onun sözlərinə görə, ötən il ölkə iqtisadiyyatının dinamik inkişafı dövlət və icmal büdcələrinin icrasına da öz müsbət təsirini göstərib. S.Şərifov qeyd edib ki, icmal büdcədə 4 milyard 700 milyon manat büdcə artıqlığı və ya ümumi daxili məhsula nisbətdə 5,9%-lik profisit əldə edilib. Maliyyə naziri əlavə edib ki,



Samir Şərifov

2017-ci illə müqayisədə gəlirlər müvafiq olaraq 6 milyard 750 milyon manat və ya 28,9 faiz, xərclər isə 1 milyard 151 milyon manat və ya 4,6 faiz çox icra olunub.

Samir Şərifovun çıxışında yer alan bu məqamları şərh edə iqtisadçı ekspertlər də ötən ilin 2017-ci ilə nisbətən yüksək iqtisadi göstəricilərlə icra edildiyini qeyd edirlər.

İqtisadçı alim Fikrət Yusifov da "Yeni Müsavat"a danışarkən vurğuladı ki, ölkə iqtisadiyyatının artım dinamikasına nail olmaq, onun real sektorunun üstün sürətlə inkişafını təmin etmək hökumətin yola saldığımız il üçün başlıca hədəfləri idi: "Bu sırada ən çox diqqət çəkən məsələlərdən biri də ölkədə makroiqtisadi sabitliyin əldə edilməsi - inflyasiyanın bir il öncəki, 12 faizdən 2,3 faizə qədər azaldılması və bu fonda əhalinin pul gəlirlərinin inflyasiyadan 4 dəfə üstün - yəni 9,2 faiz artması oldu. Ötən il ölkə iqtisadiyyatına 17,2 milyard manat sərmayə qoyulub. Müqayisə üçün deyək bu Azərbaycanın 2017-ci il üçün dövlət büdcəsinin gəlirlərindən 1 milyard manata qədər çox olan bir məbləğdir. Bu sərmayənin 11 milyard manatının - yəni haradasa 64 faizinin iqtisadiyyatın qeyri-neft sektoruna qoyulması da ümumi iqtisadiyyatımızda qeyri-neft sektorunun indiki xüsusi çəkisinə uyğun bir göstəricidir. Bu isə o deməkdir ki, iqtisadi inkişafın bütün parametrləri müəyyən edilmiş strategiyaya tam uyğun şəkildədir".

İqtisadçı alim vurğuladı ki, ötən il Azərbaycanın valyuta ehtiyatlarının daha 3 milyard dollar artması hesabına ölkəmizin maliyyə dayaqları bir qədər də möhkəmlənə bildi: "Bu gün Azərbaycan xarici borcların səviyyəsinə görə dünyada və MDB məkanında lider dövlətlər sırasındadır. Lakin buna baxmayaraq, ötən il ölkə prezidentinin bu məsələ üzrə müəyyən etdiyi strategiyaya uyğun olaraq xarici borclarımızın Ümumi Daxili Məhsuldakı xüsusi çəkisi 4 faizə qədər azalaraq, 22,8 faizdən 19 faizə endirildi. Bu gün Azərbaycanın xarici borcu onun valyuta ehtiyatlarından 4,3 dəfəyə qədər çoxdur. Keçən il ixracımız 36% artaraq onun ümumi həcmi 19 milyard dollara çatıb. Bunun hesabına xarici ticarət balansımızda 8,6 milyard dollar müsbət saldo yaranıb. Ölkə iqtisadiyyatının dinamik inkişafı və yola saldığımız ildə edilmiş böyük yatırımlar nəticəsində Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoya bildi. Belə bir durumda büdcə göstəricilərinin də pozitiv olması tam məntiqidir".

F.Yusifovun sözlərinə görə, ötən il icmal büdcədə 4 milyard 700 milyon manat büdcə artıqlığının əmələ gəlməsi və nəticə etibarilə icmal büdcənin profisitinin Ümumi Daxili Məhsulun 6 faizinə qədər bir səviyyəyə çatması bütövlükdə büdcə sistemində pozitiv bir durumun bərqərar olmasından xəbər verir: "2018-ci ilin dövlət büdcəsinin kəsirinin 951 milyon manat proqnoza qarşı faktiki olaraq 644 milyon manat icra olunması da ilk növbədə büdcənin gəlirləri üzrə proqnozlara artıq əməl edilməsi nəticəsində mümkün ola bilmişdi. Bütün bunlar iqtisadiyyatda baş verən pozitiv proseslərlə yanaşı eyni zamanda vergi və gömrük sistemində aparılan islahatların nəticəsində mümkün olmuşdu. Belə ki, ötən il gömrük sistemində aparılan şəffaflaşma tədbirləri nəticəsində bu sistemdə rüşvət və korrupsiya rıçaqları vasitəsilə yayındırılan 1 milyarda qədər vəsaiti büdcəyə cəlb etmək mümkün ola bildi".

❑ Nərgiz LİFTİYEVA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019

**"Baxış bucağı"**

# "Ola bilsin, 2019-cu ildə parlament seçkiləri keçirilsin"

## Fəzail Ağamalı: "Artıq sahibkar "kölgə iqtisadiyyatı" ilə məşğul olmağa ehtiyac duymayacaq"

**Milli Məclis üzvləri qış tətilində olsalar da, mətbuatla davamlı ünsiyyətdə olan bir sıra deputatlar yenə də ənənəvi münasibətlərini davam etdirirlər. Medianın dostlarından biri, deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı Türkiyə səfərini başa çatdırıb Bakıya enər-enməz "Yeni Müsavat"ın suallarını məmnuniyyətlə cavablandırdı.**

***- Fəzail bəy, qış tətili necə keçir?***

- Normal. Yanvarın 3-nə qədər Bakıda oldum, ailəmlə Yeni ili qarşıladıq, birlikdə şənləndik. Nəvələrim məni sevindirdi. Mən də çalışıram ki, o sevinci imkanım daxilində onlara qaytara bilim. Beləliklə, normal ailə istirahətini etdim. Yanvarın 4-dən qardaş Türkiyəyə getdim. Həm orda dincəldim. Həm də düşündüm ki, bir halda Türkiyəyə gəlmişəmsə, ümumi müayinədən keçmək də pis olmazdı. Müayinədən keçdim, hər kəs qaydasındadır. Artıq Vətəndə, yenə də xalqımızla birlikdəyəm, dostlarımın arasındayam, siz də daxil olmaqla. Tətilimin digər hissəsi heç şübhəsiz ki, Azərbaycanda olacaq. Ola bilsin bir müddət sonra ölkəmizin hansısa bir guşəsinə getdim.

***- Yeri gəlmişkən, xaricdə olan imkanlı şəxslərin ilk düşündüyü bu olur ki, gəlmişkən müayinə olunum. Sizcə, bu, nədən irəli gəlir, səhiyyəmizə etimadsızlıqdandır, yoxsa başqa səbəbi var?***

- Sizə deyim ki, artıq 15 ildən yuxarıdır, bəlkə də 16-17 ildir mən hər il xaricdə tam müayinədən keçirəm. Yəni 3-4 gün özümün bütün tibbi göstəricilərimi öyrənmək, səhhətimdə problemlərin olub-olmadığını dəqiqləşdirmək üçün müayinə olunuram. Bu, artıq məndə ənənə şəklini alıb. Biz desək ki, Azərbaycanın səhiyyəsi Avropanın, qardaş Türkiyənin səhiyyəsi səviyyəsindədir, bu, yanlışlıq olardı. Əlbəttə, ölkə prezidentinin rəhbərliyi ilə Azərbaycanın digər sahələri kimi, səhiyyəni də inkişaf etdirmək, onun maddi-texniki bazasını yüksək səviyyəyə qaldırmaq üçün olduqca mühüm addımlar atılır. Həqiqətən də Azərbaycanda çox güclü səhiyyə ocaqları, klinikalar yaradılıb. Həm dövlətin nəzarətində olan, həm də özəl klinikalar texnologiyanın ən son nailiyyətlərinə əsaslanan avadanlıqlarla təmin olunub. Lakin bizdə bu avadanlıqları xaricdəki həkimlər kimi istifadə etmək imkanları aşağıdır. Bu da kiminsə günahı deyil. Çünki Azərbaycan özünün müstəqilliyinin 30 illiyini hələ tamamlamayıb. Nəzərə almalıyıq ki, bunun 15-20 ili əslində iqtisadi, sosial inkişafa, eyni zamanda səhiyyə, təhsilin inkişafınna yönəlib. Bizim müqayisə edə biləcəyimiz Avropa ölkələri səhiyyə sistemini yüz illərdir qurub. Biz bun cəmi 10-15 ildir qurmağa başlamışıq. Ona görə də təhsil sistemində novatorluq, müasirlik, modernləşmə, son texnoloji imkanlardan istifadə edərək diaqnozu dəqiqləşdirmək və biliyi artırmaq baxımından Azərbaycanda son illərdə əhəmiyyətli addımlar atılmaqdadır. Bir sıra sahələrdə artıq Azərbaycan həkimləri öz sözünü deməkdədir. Məsələn, ürək əməliyyatlarında, digər bir sıra cərrahiyyə əməliyyatlarında bizim səhiyyəmizdə sevindirici inkişafı şahidiyik.

***- Amma yenə də siz öz ənənənizə sadiqsiniz...***

- Bəli. Amma mən harada ki, müayinə olunuram - Avropada, ya Türkiyədə - harda imkan düşürsə, həmin ənənəyə uyğun olaraq müayinədən keçirəm. Düşünürəm ki, özünə hörmət edən, özünü qiymətləndirən hər bir şəxs ildə bir dəfə hökmən bütün müayinələrdən keçməlidir. Bilməlidir ki, səhhətində hansısa problem var, ya yoxdur. Varsa, dərhal onun üstünə düşür, onu aradan qaldıra bilir və həyatının qırılmasına imkan vermir. Yox, etmirsə, bir də görürsən getdiyi yerdə, maşında, küçədə, ya iş başında dünyasını dəyişir. İnsan gərək özünə qarşı bu qədər biganə olmasın.

***- İcbari tibbi sığortanın tətbiqi vətəndaşların öz sağlamlığına diqqətini xeyli dərəcədə artırardı...***

- Tibbi sığortanın tətbiqi də mühüm şərtdir. Tibbi sığortanın tətbiqi tibbin inkişafında son dərəcə mühüm bir mərhələ, mühüm bir vəsilədir. Azərbaycanın artıq üç rayonunda bununla bağlı pilot layihələr həyata keçirilir. Bu, özünün müsbət nəticələrini göstərir. Ölkə prezidentinin də 2018-ci ilin yekunları ilə bağlı çıxışında da bu məsələ öz əksini tapdı. Yaxın zamanlarda məncə, bu məsələ öz həllini tapacaq. Beləliklə, Azərbaycan tibb sistemində ciddi, əhəmiyyətli irəliliəyişlərə əsaslı zəmin yaradılacaq.

***- Yuxarıda xatırlatdığınız hökumətin iclasında prezident İlham Əliyev çox mühüm məsələlərə toxundu. İzləmək imkanınız oldumu?***

- Yanvarın 11-də ölkə prezidentinin 2018-ci ilin yekunları ilə bağlı toplantıdakı çıxışı ilə mən qardaş Türkiyədə internet vasitəsilə tanış oldum. Orada prezident çox ciddi məqamlara toxundu. Xüsusi olaraq demək istərdim ki, 2018-ci ilin aprel ayında prezident seçkiləri keçirilərkən, səhv etmirəmsə, sizin də qəzetinizə verdiyim açıqlamalarda Azərbaycanın bütün sahələrdə islahatların aparılmasında yeni mərhələyə keçdiyi fikrini söyləmişdim və onu əsaslandırmağa çalışmışdım. Nəyə görə? Çünki ölkə prezidenti 2018-ci il prezident seçkiləri ərəfəsində və seçicilərlə görüşündə bütün bunların anonsunu vermişdi ki, 2018-ci il Azərbaycanda bütün sahələrdə yeni inkişaf mərhələsinin başlanğıcı olacaq. Bəli, biz 2018-ci ilədək çox böyük bir mərhələni keçdik. Azərbaycan sabitlik, iqtisadi yüksəliş və uğurlu xarici siyasət ölkəsi olaraq özünü təsdiq etdi. Əlbəttə, biz bununla kifayətlənməli deyilik. Çünki yeni çağırışlar, dünya miqyasında yeni situasiyalar, böyük rəqabət, güclülər və zəiflər arasında ciddi xarakterli qarşıdurmalar var. Biz bu ağır situasiyada təbii ki, zəif ola bilmərik, dövlət, xalq olaraq buna haqqımız çatmır. Ona görə də ölkə prezidenti məhz bütün bu çağırışların, yaranmış yeni situasiyaların ortaya çıxardığı tələbləri, təhdidləri, inkişaf perspektivlərini analiz edərək məhz 2018-ci ilin aprelində seçildikdən sonra baxın, bütün istiqamətlərdə geniş xarakterli islahatların daha da dərinləşməsi istiqamətində addımlar atdı. Bu islahatlar daha operativ, daha çevik, həm də sistemli xarakter daşımağa başladı. Təkcə 2018-ci ildə iki beynəlxalq təşkilat Azərbaycan haqqında apardığı araşdırmalarla hər birimizdə qürur doğuracaq rəqəmləri ortaya qoydu. Həm Davos Forumu Azərbaycanın inkişafına yüksək qiymət verdi. Həm də "Doing Business - 2019" reytinq cədvəlində Azərbaycanın 32 pillə irəliləyərək, 190 ölkə arasında 57-ci yerdən 25-ə yüksəldi. Nəzərə alsaq ki, Azərbaycan Almaniyadan bir pillə geridə qərarlaşıb, Avstriyanı isə iki pillə qabaqlayır. Baxın, Azərbaycan MDB ölkələri içərisində birinci yerdədir.



**"Nazirlər Kabinetində təkrarlanan strukturların birləşməsi baş verəcək və... "ölü" qurumlar ləğv olunacaq"**

***- Demək, islahatların həyata keçirilməsi istiqamətində yeniliklərin şahidi olacağıq, eləmi?***

- Təbii ki. Yuxarıda sadaladığım uğurlardan sonra ölkə prezidenti bir sıra baryerləri aşmaq üçün sahibkarlığın daha da inkişafı, əhalinin gündəlik ehtiyaclarının aradan qaldırılması, sosial problemlərin həlli üçün ASAN Xidmətə bərabər digər layihələrlə bağlı tapşırıqlar verdi və ayrı-ayrı strukturlar bunu reallaşdırmağa başladılar. DOST yaradıldı, sosial problemlərin həlli ilə bağlı. Eyni zamanda indi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaranması ilə kiçik və orta sahibkarların bütün problemlərini həll edəcək KOB evlərinin yaranması ilə bağlı artıq KİV-də məlumatlar gedir. Bununla bağlı artıq Bakıda, eyni zamanda regionlarda belə evlər yaradılacaq. Artıq sahibkarlar özlərinin bütün problemlərini məhz bu evlər vasitəsilə reallaşdıracaq. Onlar artıq ayrı-ayrı nazirliklərə, strukturlara müraciət etməyəcəklər. Əhalinin sosial problemlərini həll etmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST sistemi yaradılıb. 124 məsələnin həlli məhz onların üzərində olacaq. Bütün bunlar çox ciddi islahatlardır. Bütün bunların mahiyyətinə varanda gəldiyim nəticə ondan ibarətdir ki, ölkə prezidenti cənab İlham Əliyev, heç şübhəsiz ki, artıq özünü böyük və yaradıcı islahatçı kimi təsdiq edib və o proses gedir. Əlbəttə, bütün bunların hamısı Azərbaycan xalqının rifahı, Azərbaycan dövləti, onun güclənməsi, onun iqtisadiyyatının daha möhkəm, daha dayanıqlı olması, ordumuzun güclənməsi üçündür, Azərbaycanın dünya dövlətləri içərisində inkişaf etmiş ölkələr sırasına çıxmasına hədəflənmiş olan iradənin ifadəsidir. Bütün bunların hamısı haqqında prezident son müşavirədə konkret fikirlər söylədi.

***- Ölkə rəhbəri "bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır" dedi. Prezidentin bu fikirlərinin ardınca nə gözləmək olar? Adətən bizdə nazirliklər və komitələrin sayının çoxluğundan bəhs olunur. Hansı qurumların ləğvi baş verə bilər?***

- Əlbəttə, mən onun təsnifatı barədə konkret fikir söyləyə bilmərəm. Ancaq ölkə prezidenti bununla da bağlı fikrini dedi. Bildirdi ki, artıq bu islahatlar aparılmalıdır, daha çevik, daha operativ, daha konkret idarəçilik sistemi yaranmalıdır. Belə fikirlər də söylədi ki, biz ayrı-ayrı agentliklər, strukturlar yaradırıq. Ancaq sonra baxırıq ki, onlar şişir və şişdikcə də təbii ki, həm idarəçilikdə problem yaranır, həm də xeyli dərəcədə büdcə vəsaitləri xərclənir. Ona görə məncə, Nazirlər Kabinetində də təkrarlanan strukturların birləşməsi baş verəcək və əslində "ölü" bir struktur olan, dövlətdən maliyyələşən ayrı-ayrı qurumlar ləğv olunacaq, buna qətiyyən şübhəm yoxdur. Biz 2019-cu ili daha ciddi şəkildə islahatların davam etdiyi il kimi görəcəyik, burada xüsusi olaraq idarəçilik sistemində, həmdə kadr sahəsində ciddi dəyişikliklərin şahidi olacağıq, buna qətiyyən şübhə yoxdur.

***- Dövlət başçısının bəzi sahələrə rəhbərlik etmiş şəxslərlə bağlı münasibəti də ciddi məsəldir. Eyni zamanda, həmin sahələrin mövcud fəaliyyətindən razılığını ifadə etdi. Sizcə, bu, nəyə işarə idi?***

- Bəli, ölkə prezidenti xüsusi olaraq büdcənin maliyyə vəsaiti ilə təmin olunmasında, büdcə yığımında çox mühüm rol oynayan ilk sahənin adını çəkdi. Bunlardan biri Vergilər Nazirliyi, digəri isə Dövlət Gömrük Komitəsi oldu. Həmçinin köhnə rəhbərlik haqqında tamamilə doğru olaraq çox sərt fikirlər söylədi. Biz də cənab prezidentin bu fikirlərini həmişə dəstəkləmişik və bu gün də o fikirləri müdafiə edirik, zamanında ölkə prezidentinin siyasətinə uyğun olaraq sözümüzü demişik. Həm Vergilər Nazirliyində, həm Gömrük Komitəsində yeni təyinatlar özünün artıq doğrudan da ciddi və əhəmiyyətli nəticələrini göstərməkdədir. Əgər Gömrük Komitəsində ixrac-idxal əməliyyatlarında toplanan vergilərin həcmi xeyli dərəcədə artırsa... Vaxtilə orda toplanan vergilər heç 1 milyarda çatmırdı. Ancaq keçən il ancaq 3 milyarddan yuxarı vəsaiti Gömrük Komitəsi idxal-ixrac əməliyyatlarından vəsait toplayıb. Bununla büdcəyə geniş imkanlar yaradıbsa, o da dövlətimizin ciddi layihələrinin həyata keçirilməsinə xərclənibsə, bu, ancaq alqışa layiqdir. Artıq orda şəffaflıq təmin olunur, korrupsiya və rüşvətxorluğa qarşı qətiyyətli və ciddi mübarizə gedir, biz mətbuatdan oxuyuruq. Beləələri həbs olunur, işdən çıxarılır və s. Vergi sistemində çox ciddi islahatlar gedir, şəffaflıq var, heç bir əyinti yoxdur, sahibkarlar incidilmir, sahibkarlarla vergi məmurları arasında normal, sivil əməkdaşlıq mövcuddur. Mənə belə gəlir ki, yaxın zaman kəsiyində qanunlar çərçivəsində tam əsaslı münasibətlər olacaq. Hər bir ölkədə vergidən yayınmağa çalışanlar olur. Təbii bunun da qarşısı alınmalıdır, necə ki, alınır. Artıq "kölgə iqtisadiyyatı"na son qoymaq üçün ölkə prezidentinin ciddi çağırışları var. Mən inanıram ki, bu, həyata keçiriləcək. Həm də "kölgə iqtisadiyyatı"nı yarada bilən iqtisadi və maliyyə məsələləri də, yəni vergi sistemində aparılmaqda olan islahatlar elə bir elə bir istiqamətə yönələcək ki, mən düşünürəm ki, artıq sahibkar "kölgə iqtisadiyyatı" ilə məşğul olmağa ehtiyac duymayacaq. Bu da ölkə prezidenti tərəfindən çox vacib bir məqam kimi deyildi. Bu sahəyə önəm verilməsinin səbəbi budur ki, ölkə büdcəsini formalaşdıran Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsidir. Əgər bu iki qurumda sağlam mühit mövcuddursa, şəffaflıq varsa, rüşvətxorluq və korrupsiyaya qarşı çox ciddi mübarizə gedirsə, idxal-ixrac əməliyyatlarında yayınmalar yoxdursa, sahibkar Vergilər Nazirliyi tərəfindən sıxışdırılmır, əksinə, həvəsləndirilirsə, hökmən bu, Azərbaycan büdcəsinə nəzərdə tutduğumuzdan daha böyük üstünlüklər gətirəcək ki, bu da hər bir vətəndaşın maraqlarına uyğundur.

***- Fəzail bəy, siz ölkədə olmadığınız günlərdə xəbər yayıldı ki, apreldə növbədənkənar parlament seçkiləri keçiriləcək. Sizcə, növbədənkənar parlament seçkiləri realdırmı?***

- Artıq neçə vaxtdır bu məsələ mətbuata çıxır. Bilmirəm, apreldə və yaxud payızda olacaq. Ancaq gəldiyim nəticə budur ki, bir xalq mahnısı var: "Elin sözü əvvəl-axır düz olur" (gülüşmə). Bu qədər söhbətlər gedir, artıq mən də istisna etmirəm ki, ola bilsin 2019-cu ildə parlament seçkiləri keçirilsin.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Bordo qaçqınları Bərdədə

Zamin HACI
zaminhaci@gmail.com

"Əgər, məsələn, mən Qarabağa gəlməsəydim (əlini uzadıb cibindən bir dəftər çıxarıb, açıb, içində səliqə ilə düzülmüş bir neçə otları göstərib), əgər mən Qarabağa gəlməsəydim, kim biləcək idi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur?"

***(Mirzə Fətəli Axundov, "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur")***

**Fransada sarı jiletlilərin üsyanları davam edir, nə qədər yazıq müxalifətçini tutub dama salıblar. Keçən həftə bizim Elmar müəllimin idarəsi - Azərbaycan Xarici İşlər Nazirliyi bu haqda kəskin bəyanat verdi, Emmanuil Makron hökumətini dustaqları incitməməyə, azadlığa buraxmağa çağırdı. Deyir sarı jiletlilərdən bir nəfər KAMAZ şoferi (adı Mehmanuel Osseyn imiş) Bastiliyə türməsində 70 gündür aclıq aksiyası keçirir, ölmək təhlükəsi altındadır, hələ bəlkə bir neçə dəfə ölüb-dirilibdir. Parisdəki səfirimiz Eleonora xanım (bəlkə də onun adı artıq başqa cürdür, ancaq mənim bu səsləşmə xoşuma gəldi: Emmaunel, Elmar, Eleonora, ombudsman Elmira xanım və sairə) sürücüyə baş çəkib, Azərbaycan mətbəxinin ləziz nemətlərindən İvanovka tvaroqu aparmışdır.**

Əlbəttə, Yelisey sarayında bizim XİN-in bəyanatından narazı qalıblar, deyirlər nə üçün Azərbaycan Fransanın daxili işlərinə qarışır. Halbuki, insan haqları heç bir ölkənin daxili işi ola bilməz! Bu mənada, insan haqları əslində hər ölkənin xarici işidir. Deməli Fransada hüquqları pozulan sarı jiletliləri qorumaq elə Elmar müəllimin idarəsinin borcudur, necə ki, fransızlar da 25 ildir ATƏT-in Minsk qrupunda guya bizim Qarabağ problemini həll etməklə məşqulat edirlər. Fransa həmin qrupda 3 həmsədrdən biridir. Sözgəlişi, bizim hökumət fransızlara "Hansısa Mehmana görə narahat olursunuz, ancaq 1 milyon qaçqını fikirləşmirsiniz" iradını tutanda bu baxımdan movqeyi bir qədər zəif görünür. Nöşün ki, fransız da qayıdıb deyər qaçqınlarınıza biganə olsaydım, o qrupda nə işim vardı. Doğrudan da, qarabağlıları geri qaytarmaq üçün Fransa hökuməti çox əziyyət çəkir. Hətta Cocuq Mərcanlıda konyak zavodu açıblar. Lakin bizim camaat nəsə torpağa biganədir, qayıtmırlar.

Fransada sarı jiletlilər hərəkatı miqrasiya baxımından da bizi narahat edir. Çünki orda haqları pozulan fransızlar sığınacaq üçün Azərbaycan kimi ölkələrə üz tuturlar. Dövlət Miqrasiya Xidmətinin məlumatına görə son 3 ayda Gürcüstan, İran, Rusiya, Türkmənistan, Türkiyə və Ermənistan sərhədlərimizdən qaçqın olaraq Azərbaycana daxil olan fransızların sayı kritik həddə yüksələrək 10 min nəfəri keçmişdir. Bunlardan 3 min nəfəri Biləsuvarda fransızlar üçün çadır şəhərciyində, 4 min nəfəri Goranboyda taxta evlərdə, 3500 nəfəri (bunların içində Bordo qaçqınları çoxluq təşkil edir) Bərdədə "Le Retour" qaçqın düşərgəsində (tərcüməsi "Qayıdış" deməkdir) yerləşdirilmişdir. Binəqədidə Narxozun yataqxanasında məskunlaşan 1500 qaçqın fransızlar arasında marsellilər üstünlükdədir. Bəzi fransızlar isə - təxmini sayları 750 nəfərdir - Əhmədlidə Bünyad Sərdarov zavodunun fəhlələri üçün tikilən binanı qanunsuz zəbt etmişlər, deyirlər sərəncam var, heç kim fransızları məskunlaşdığı müvəqqəti mənzillərdən çıxarda bilməz.

Təbii ki, biz bütün fransalı qaçqınları ərazimizdə yerləşdirə bilmərik, bizim planetar problemlərimiz özümüzə bəsdir. Misal üçün, Pakistanda məktəb tikməliyik, Misirdə park salmalıyıq, Romada papanın maşınının motoru dağılıb, onu qayırmalıyıq, Moskvada Putin qrip olub, onun belinə banka qoymalıyıq və sairə. Üstəlik, hüquq-mühafizə orqanlarımızın araşdırmalarına görə, Azərbaycanda sığınacaq axtaranlar arasında özünü fransız kimi qələmə verən başqa millətlər də vardır! Misal üçün, ingilislər, almanlar, italyanlar, isveçrəlilər, çexlər, danimarkalılar, ən dəhşətlisi isə ermənilər! Bəli. Bədnam düşmənlərimiz təxribat üçün fransız cildinə girməkdən çəkinmirlər.

Bundan başqa, bəzi fransızlar Parisdə mitinq zamanı polisə beş-üç avro rüşvət verib özünü yalandan dubinka ilə vurdurur, həmin anın şəklini çəkdirib özləri ilə Bakıya gətirirlər. Həyasızlığa baxın. Guya müxalifdirlər, Makron hökuməti bunları incidir. Lakin bizim əlaqədar orqanlar belə halların üstünü sayıqlıqla açırlar. Onları aldatmaq mümkün deyildir.

# "Qalib" Ermənistan məğlub durumda - işğalçı ölkə ən kritik dönəmə girir

## Bu gün Ermənistanın yeni parlamenti ilk iclasına toplaşır; təzə hökumətin elan edəcəyi proqramda xarici siyasət prioriteti ABŞ, yoxsa Rusiya olacaq - gözlər İrəvanda; analitiklər yaxın dövr üçün Paşinyan və komandasına siyasi aqibət "donu" biçdilər...

**Bu gün Ermənistanın yeni parlamenti ilk iclasına toplaşır. "Yeni Müsavat" xatırladır ki, 9 dekabr son parlament seçkiləri nəticəsində formalaşan növbəti qanunverici orqanda qərbyönlü, anti-Rusiya qüvvələri konstitusion çoxluq (2/3) təşkil edəcək. İnqilab lideri Nikol Paşinyan istəsə, konstitusiyanın maddələrini belə dəyişdirə bilər. Onun özünün baş nazir seçilməsi isə şübhə doğurmur.**



Lakin qərbyönlülərin təzə parlamentdə konstitusion çoxluğu onlar üçün üstünlüklə yanaşı, böyük bir məsuliyyət deməkdir. Ona görə ki, inqilabın qələbəsini "maddiləşdirmək", Paşinyanın narazı xalqa verdiyi vədləri tutmaq zamanı artıq çatıb və yenilik, dəyişiklik istəyən narazı toplum sonsuzadək gözləməyəcək. Bu vədləri reallaşdırmaq üçün isə titanik səylər, olduqca çevik daxili və xarici siyasət kursu, hətta böyük siyasi qrossmeyster bacarığı tələb olunur.

Bu gün Nikol üçün populizm dönəmi rəsmən bitir və daha qəliz və məsuliyyətli bir dönəm başlayır - hansı dönəm ki, onun və komandasının taleyini müəyyən edəcək. Bundan sonra siyasi rəqiblərə qarşı təzyiq vasitəsi kimi küçəni, kütləni köməyə çağırmaq, idarəçilikdəki fiaskoları küçə hesabına pərdələmək mümkün olmayacaq. Çünki ölkədə artıq legitim hakimiyyət və ona qarşı konkret tələblər var, parlamentdə, hökumətdə Nikol və komandasının işinə pəl vuracaq ciddi qüvvə yoxdur. Başqa sözlə, islahatları yubatmaq üçün nə siyasi, nə də hüquqi bəhanələr qalıb. Paşinyan parlamentdə ölkənin daxili və xarici siyasəti, iqtisadi inkişaf konsepsiyası ilə bağlı konkret, realist bir proqram təqdim etməli və onun həyata keçirmə mexanizmini göstərməlidir.

*****

Ən maraqlısı da budur. Nədən ki, Paşinyan proqramda təkcə ağır sosial-iqtisadi problemlərin həll yolunu yox, eyni zamanda, xarici siyasət kursunun oriyentirlərini göstərməlidir. Bu xüsusda hökumətin proqramını, Paşinyanın yeni parlamentin ilk iclasındakı proqram çıxışını şübhəsiz ki, ABŞ və Rusiya diqqətlə izləyəcək. Görəsən, Nikol "iki stulda oturmaq" siyasətini proqramda əks etdirə biləcəkmi?

Əgər Paşinyan öz sələfləri kimi, Ermənistanın Rusiyanın siyasi-hərbi orbitində qalmasına üstünlük verəcəksə, o zaman Qərbin, xüsusən də ABŞ-ın, hətta Qərbdəki varlı erməni lobbisinin maliyyə dəstəyindən əlini üzməli olacaq. Paralel surətdə daxildə öz xalqı yanında yalançı çıxacaq. Yox, "stavka" Amerikaya, Qərbə ediləcəksə, o zaman Rusiyanın sürprizlərinə hazır olmalıdır.

Görünən budur ki, Paşinyanı ağır seçim gözləyir. Təbii ki, legitim hökumət başçısı kimi, o, Qarabağ məsələsində də optimal, sülh danışıqlarını irəli apara biləcək, müharibə riskini minimuma endirəcək mövqe ortaya qoymalıdır. Əks halda, problemin həllində 20 ildə heç bir irəliləyişə nail olmayan sələflərini tənqid eləməyə üzü olmayacaq. Ən önəmlisi, Ermənistandan ağır blokada rejimi davam edəcək, ölkədən kütləvi köç səngiməyəcək, böyük xarici sərmayələr gəlməyəcək.

*****

Bəs yeni dönəmdə Paşinyanın xarici siyasətinin əsas vektoru necə olacaq - qərbyönlü, yoxsa rusiyayönlü? Politoloqların bu yöndə proqnoz və gözləntilərini təqdim edirik.

"Mən Paşinyanın qərbyönümlü olmasına inanıram. Fikrimcə, Paşinyan bu məsələdə səmimidir. Lakin iş səmimiyyətlə də həll olunmur. Siyasi fürsətlər sistemi deyilən bir anlayış var". "Yeni Müsavat"ın məlumatına görə, bunu teleqraf.com-a açılqmasında politoloq Erkin Qədirli deyib.

Politoloq Ermənistanın Rusiyadan davam edən güclü asılılığına diqqət yönəldərək deyib: "Geopolitik duruma nəzər yetirəndə aydın olur ki, Ermənistanın sərhədlərini Rusiya qoruyur, Ermənistanda rus hərbi bazası var, iqtisadiyyatın əsas gəlir gətirən obyektləri Rusiyanın dövlət şirkətlərinin mülkiyyətindədir. Həmçinin Dağlıq Qarabağ məsələsi var. Bu da Ermənistana əlavə yükdür. Ermənistan səmimi olaraq Qərbyönümlü siyasi kurs aparmaq istəyirsə, ümumiyyətlə, ölkəsində arzuladığı inkişafı görmək istəyirsə, Azərbaycanla barışması şərtdir. Bunu onlara hamı deyir. Özlərində də başa düşəni var. Barışmaq üçün isə gərək Qarabağı Azərbaycana qaytara. Bu məsələdə isə sərbəst görünmürlər. Çünki Qarabağa faktiki olaraq, Rusiya nəzarət edir".

Bu üzdən politoloq İrəvanın vəziyyətini çox dolaşıq sayır. "Gürcüstanla Azərbaycan Ermənistandan fərqli olaraq ərazi itiriblər, çoxsaylı qaçqınlar var, amma açıq qərbyönümlü kurs götürüblər. Çünki bizim Rusiyadan asılacağımız çox azdır, bizimki bizə dəyib artıq. Rusiya bizim də, Gürcüstanın da torpağımızı əlimizdən alıb, onlardan birbaşa, bizdən dolayı alıb. Dəqiq bilirik ki, Rusiyanın bizə münasibəti nədir. Amma Ermənistanın Rusiyadan umacağı çoxdur. Məsələn, Qarabağı alıb onu rəsmiləşdirə, tanıya bilmir, məskunlaşma edə bilmir, Rusiyaya böyük ehtiyacı var. Belədə də Qarabağı Azərbaycana qaytarmaq kimi bir sərbəstliyi də yoxdur, çox böyük riskdir. Onu edən hökuməti bir yandan xalq devirə bilər, o biri yandan Rusiya özü də deyə bilər ki, sən kimsən Qarabağı Azərbaycana verirsən, onu sənin üçün mən almışam, mən saxlayıram. Odur ki, qəribə paradoksal vəziyyətdir: Ermənistan hərbi baxımdan qalibdir, amma siyasi baxımdan uduzmuş durumdadır", - deyə o əlavə edib.

Öz növbəsində politoloq Arzu Nağıyev düşünür ki, Nikol Paşinyanın hakimiyyəti artıq fiaskoya uğramaqdadır. "Ermənistanın hələ də siyasi, iqtisadi və hərbi doktrinası yoxdur. Bu, o deməkdir ki, Paşinyan boş yerə Qərbə böyük ümidlər bəsləyib. İkincisi, müxtəlif fraksiyalardakı biznesmenlərin indiki hakimiyyətdə təmsil olunmaması onun ən böyük səhvlərindən idi. Paşinyan nə qədər çalışsa da, ölkəsini sərt qışdan çıxara bilməyəcək. Bu yaxınlarda Moskvadan əliboş qayıdan Paşinyan Qərbdən də əlini tamamilə üzüb. Buna görə də o, çox aciz bir şəkildə erməni diasporundan olan sahibkarlara üz tutub. Əgər Paşinyan parlamentdə vəzifə bölgüsündən sonra ölkədə iqtisadi vəziyyəti ələ ala bilməsə, Ermənistanda iğtişaşlar qaçılmaz olacaq", - deyə ekspert xəbərdarlıq edib.

Vaşinqtondakı Kornegi Fondunun Şərqi Avropa və Qafqaz regionu məsələləri üzrə böyük elmi əməkdaşı, bölgə ilə bağlı çoxsaylı təhlillərin və "Qara və Bağ" kitabının müəllifi Tomas de Vaal isə hesab edir ki, Paşinyan dövlət xadimi yox, inqilabçıdır. "Paşinyan yeni idarəetmə institutları yaratmaqda maraqlıdırmı, yoxsa sırf piara və inqilabi hərəkətlərə ehtiyacı olan "ikinci Saakaşvilidir"? Hazırda bu suallara cavab yoxdur", - deyə o bildirib.

Ancaq onun fikrincə, seçkilərdə qələbə qazanaraq qanuni hakimiyyət əldə edən Paşinyan diqqətini əvvəlki kimi qələbəyə yox, idarəçiliyə cəmləyə bilər. "Belə təəssürat yaranır ki, o, Ermənistanın korrupsiyadan azad olunmasını səmimi şəkildə arzulayır. Ehtimal ki, onun özü də korrupsiyalaşmayıb. Ancaq Paşinyana özünəməxsus inqilabi stil xasdır. O, inqilabçıdan dövlət xadiminə ciddi bir keçid etməli olacaq" - de Vaal əlavə edib.

Bir şey dəqiqdir ki, ilin ilk 3 ayı Paşinyan hökuməti üçün ən kritik dönəm olacaq. Təkcə soyuq qışa görə yox, həm də seçim zərurətinə görə...

❑ **"Yenì Müsavat"ın analìtìk xìdmətì**

**Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində işğalçı Ermənistanla bağlı da ciddi fikirlər bildirib. Prezident qeyd edib ki, Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar Ermənistandakı biabırçı mənzərəyə indiyə qədər göz yumurdular.**

# Köçəryan-Sərkisyan xunta idarəçiliyinə sərrast qiymət

## İlham Əliyev cinayətkar rejimlə beynəlxalq təşkilatların işbirliyini ifşa etdi



İlham Əliyevin nitqində ən maraqlı məqamlardan biri Ermənistanın beynəlxalq arenada konyak diplomatiyasını işə salması və bir çox siyasətçiləri bu yolla satın alması barədə fikirlər olub. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amilinin birinci yerdə olduğunu vurğulayan dövlət başçısı Ermənistandakı kriminal rejimə 20 il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilərin məsuliyyətə cəlb olunması məsələsini qaldıraraq bəyan edib ki, Serj Sərkisyan rejiminə dəstək verən, göz yuman beynəlxalq təşkilatların da onun törətdiyi cinayətlərdə payı var.

Ölkə başçısının diqqət çəkdiyi və Ermənistanda 20 il mövcud olmuş rejimi ifşa edən daha bir məsələ son parlament seçkilərində Sərkisyanın partiyasının 5 faiz belə səs qazanmaması ilə bağlı olub. İlham Əliyev bu nüansa diqqət yetirərək məntiqi sualla Sərkisyan rejiminin illər uzunu saxta seçkilər keçirdiyini ifşa edib: "Son parlament seçkilərində 5 faiz belə səs yığa bilməyən, lakin əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməyib?!"

Azərbaycan prezidentinin fikirləri siyasi ekspertlər və politoloqlar tərəfindən ətraflı təhlil edilməkdədir.

Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan prezidenti Ermənistanla bağlı bir sıra mühüm istiqamətlərə diqqət çəkib və beynəlxalq təşkilatların bu ölkəyə olan münasibətinin əsasında dayanan məqamları gün işığına çıxarıb: "Cənab prezident tamamilə doğru qeyd etdi ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Belə olmasaydı, uzun illər boyu Avropa Parlamenti, Avropa Şurası və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar Ermənistandakı biabırçı mənzərəyə göz yummazdılar. Faktlara diqqət yetirək: 1999-cu il oktyabrın 27-də bir qrup sifariş icra edən silahlı dəstə sərbəst şəkildə Ermənistan parlamentinin binasına daxil olur, canlı yayımda baş nazir Vazgen Sərksiyanı, parlamentin sədri Karen Dəmirçiyanı, onun müavinləri Yuri Baxşyan və Ruben Miroyanı, operativ məsələlər üzrə nazir Leonid Petrosyanı və deputatlardan Armenak Armenakyanı, Henrix Abramyanı, Nikael Kotanyanı xüsusi amansızlıqla, hər kəsin gözü qarşısında qətlə yetirir. Bu hadisə baş verəndə hərbi-cinayətkar Robert Köçəryan 1 il 7 ay idi ki, Ermənistan prezidenti idi. Parlamentdə, ictimaiyyətin gözü qarşısında qətlə yetirilən şəxslər isə onunla eyni mövqeyi bölüşmürdülər. Xüsusilə də baş nazir Vazqen Sərksiyan və parlamentin sədri Karen Dəmirçiyan ondan daha üstün nüfuza malik edilər. Vazqen Sərksiyan Ermənistan doğumlu idi. Azərbaycan torpaqlarının işğalı prosesində "Yerkrapa" hərbi birləşmələrinə rəhbərlik etmişdi və Ermənistanın ilk müdafiə naziri olmuşdu. Özünü "müharibə qəhrəmanı" hesab edən Köçəryanın ən böyük rəqibi hesab olunurdu. Buna baxmayaraq, o və Karen Dəmirçiyan münaqişəyə son qoymağın tərəfdarı idilər. Əgər onlar sülh sazişinin imzalanmasına nail ola bilsəydilər, şübhəsiz ki, hakimiyyət "Qarabağ klanı"nın əlindən birdəfəlik alınıb onların əlinə keçəcəkdi. Köçəryan isə buna imkan verə bilməzdi. Beləliklə, terrorçu Köçəryan öz siyasi rəqiblərinin öhdəsindən ən yaxşı bacardığı işlə - terrorla gəldi. Bütün bunlardan sonra Robert Köçəryan daha 9 il Ermənistan prezidenti oldu və ədalətdən, demokratiyadan dəm vuran beynəlxalq təşkilatlar onunla yaxından əməkdaşlıq etdilər. 2003-cü ildə həmin o beynəlxalq təşkilatlar bu hərbi-cinayətkarın kütləvi saxtakarlıqla yenidən prezident seçilməsinə göz yumdular. Eyni hadisə Köçəryan öz yerini terrorçu yoldaşı, vaxtilə onun "seçki kampaniyası"nı aparan Serj Sərkisyan hakimiyyətə gələndə də təkrarlandı. Seçkidən sonra keçirilən etiraz aksiyalarının dağıdılması zamanı dinc nümayişçilərə qarşı silah işlədildi, 10 nəfər qətlə yetirilidi, 230 nəfər ağır bədən xəsarəti aldı, yüzlərlə insan həbs edildi. Amma buna baxmayaraq, Azərbaycan prezidentinin dediyi kimi, "Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar" hər kəsin gözü qarşısında baş verən bu cinayətlərin nəinki üzərindən keçdilər, hətta hərbi-cinayətkar Serj Sarkisyanı Avropada qəhrəman kimi qarşıladılar. Onunla uzun illər boyu əməkdaşlıq etdilər, cinayətlərinə göz yumdular, dəstəklədilər, himayə etdilər.

Bu baxımdan prezident İlham Əliyev tamamilə haqlı olaraq bildirdi ki, Ermənistandakı kriminal rejimə iyirmi il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar. Çünki Sarkisyan rejiminə dəstək verən, göz yuman beynəlxalq təşkilatların da onun törətdiyi cinayətlərdə payı var".

Politoloq vurğuladı ki, son parlament seçkilərinin nəticələri də son 15 il ərzində ən yüksək kürsülərdən Ermənistanın hərbi-cinayətkar rejiminin əməllərinə diqqət çəkən prezident İlham Əliyevin işğalçı ölkədə cərəyan edən proseslərə nə qədər dəqiq və obyektiv şəkildə dəyərləndirdiyini sübuta yetirdi: "Çünki 20 il ərzində Ermənistanı cinayətkar üsullarla idarə edən Köçəryan-Sarkisyan cütlüyünün "komandası" 2018-ci ildə keçirilən parlament seçkilərində heç 5 faiz səs toplaya bilmədi. Amma cəmi 5 il öncə keçilən parlament seçkilərində Serj Sarkisyan 58,64 % səs toplamışdı, 2017-ci ildə keçirilən parlament seçkilərində isə Sərkisyan və onun Sarukyan Alyansı və Daşnaksyutunda olan əlaltıları birlikdə səslərin 81,1%-ni "qazanmışdılar". Amma cəmi 1 il sonra Ermənistanda keçirilən növbədənkənar seçkilərdə Serj Sarkisyanın partiyası cəmi 4,7% səs toplaya bildi. Maraqlıdır, 1 il ərzində nə baş verdi? Dünyanın siyasi tarixində hər hansı siyasi təşkilatın belə qısa müddətdə 76% səs itirməsi faktına rast gəlmək mümkün deyil. Şübhəsiz ki, 20 il ərzində hərbi-cinayətkar xuntanın Ermənistanda keçirilən seçkilərdə topladığı səs 5%-dən yüksək olmayıb, yerdə qalan səslər isə oğurlanıb və demokratiyadan dəm vuran beynəlxalq təşkilatlar da bu oğurluqda uştirak ediblər. Qərb siyasətçilərinin Ermənistanın "konyak diplomatiyası"nın təsiri altında necə əridiklərini təkcə Azərbaycanda deyil, Ermənistanda da etiraf edirlər. Məsələn, erməni araşdırmaçısı Ruben Giziryan erməni konyakını "diplomatiya üçün yanacaq" və yaxud "diplomatiya üçün sürtkü yağı" adlandırır. Doğrusu, sonuncu ifadəni daha dəqiq hesab edirəm. Çünki qərb diplomatlarının erməni "sürtkü yağı" ilə necə yağlandıqlarını görmək üçün bu sahə üzrə mütəxəssis olmaq lazım deyil".

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a şərhində bildirdi ki, Azərbaycan prezidentinin Nazirlər Kabinetinin müşavirəsindəki çıxışının Ermənistanla bağlı hissəsi beynəlxalq qurumların və bir sıra dövlətlərin Ermənistanda uzun illər rüşvətxor, hərbi xunta rejiminin hökm sürməsində rolunun olduğunu bir daha ortaya qoyur: "Prezidentin çıxışının bir hissəsindən həm də onu anladım ki, Azərbaycan prezidenti İlham Əliyev Nikol Paşinyanın dekabr ayındakı parlament seçkisində qələbə qazandığını şübhə altına almır. Həqiqətən də Ermənistandakı son parlament seçkisində Robert Köçəryanın və Serj Sərkisyanın dövründə olan ciddi saxtakarlıq halları qeydə alınmadı. Əksi olsaydı, həm Paşinyana qarşı kəskin müxalifətdə olan "Qarabağ klanı", həm də beynəlxalq təşkilatlar kəskin bəyanatlar verərək seçkinin nəticələrini tanımazdılar. Bunların heç biri olmadı. Azərbaycan prezidenti də haqlı olaraq bunu nəzərə alır. İlham Əliyev məhz bu reallıqdan çıxış edərək Ermənistanda bundan əvvəlki bütün seçkilərin saxtalaşdırıldığını bildirir. Prezident çox mühüm məqama toxunub. Həqiqətən Qarabağ klanı bu neçə illərdə seçkilərdə necə "qələbə" qazanıb ki, son seçkidə 3-4 faiz belə səs toplayıb parlamentə düşə bilmədi. Qarabağ klanının son seçkilərdə biabırçı məğlubiyyəti onu sübut etdi ki, Ermənistanda 20 ildə bütün seçkilər saxtalaşdırılıb, Köçəryan və Sərkisyan rejiminə saxta səslər yazılıb. Onlar hakimiyyətdə saxta seçkilərlə,dövləti cinayət törətməklə sahibləniblər. Həmin klanın seçki saxtakarlıqları etməsində bir çox beynəlxalq təşkilatların da ən azından seyrçi mövqe sərgiləməsi, həmin qurumların təmsilçilərinin rüşvətə bulaşması da rol oynayıb. Azərbaycan prezidenti çıxışında beynəlxalq təşkilatların Ermənistandakı bundan əvvəlki seçki nəticələrinə etiraz etməsəməsinə məhz buna görə diqqəti çəkdi. Ermənistanda seçki saxtakarlıqlarına göz yuman, saxtakarlığa şərait yaradan həmin beynəlxalq təşkilatların Azərbaycandakı seçkilərə münasibəti hər zaman mənfi olub. İlham Əliyev "ikili standartları" vurğulamaqda haqlıdır. Azərbaycandakı seçkilərə tənqidi münasibət bəsləyən beynəlxalq təşkilatlar 2008-ci ildə Ermənistanda prezident seçkisi zamanı saxtakarlığa qarşı küçəyə çıxan insanların qətlinə seyrçi qaldılar, Serj Sərkisyanla əməkdaşlıq etdilər. İkincisi, İlham Əliyev çıxışında nahaq yerə "konyak diplomatiyası" ifadəsini işlətmədi. Azərbaycan prezidenti Avropanın "konyak diplomatiyasına" təslim olduğunu bu açıqlama ilə bildirdi. Bundan sonra Azərbaycanın hakimiyyət mənsubları "konyak diplomatiyası" ifadəsindən hələ çox istifadə edəcəklər".

Politoloq prezidentin "Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq" fikrinin üzərində də xüsusi dayanmasını təsadüfi saymır: "İlham Əliyev hər iclasda bu fikri xatırlatmaqla Ermənistan hakimiyyətinə və cəmiyyətinə önəmli mesaj göndərir. Mesajın əhəmiyyəti budur ki, Ermənistan öz istəyi ilə Azərbaycan torpaqlarını boşaltmasa, buna məcbur ediləcək və bu zaman işğalçı ölkənin itkiləri böyük olacaq. Necə ki, qonşu dövlət 2016-cı il aprel savaşında üzləşdiyi itkilərdən hələ özünə gəlməyib. Azərbaycan prezidentinin müşavirədə ötən il Naxçıvanda azad olunan torpaqları da misal olaraq xatırlatması təsadüfi deyildi. Yeni Azərbaycan ordusu irəriləməkdə davam edəcək. Bu işğalçı dövlətə təzyiq vasitəsidir və Azərbaycan Ermənistana təzyiqi getdikcə artıracaq. Bizim başqa alternativimiz yoxdur. Ermənilər anlamalıdırlar ki, Azərbaycan torpaqlarının işğalı üzərində özlərinə gələcək qura bilməyəcəklər, biz buna imkan verməyəcəyik. Azərbaycan prezidenti Ermənistan hakimiyyətinə və cəmiyyətinə bunu anlatmaq istəyir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019



# Əsas odur, proses gedir

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Daha bir məmurun ifşa hekayəsini izləməkdəyik. Bu dəfə siyahıda 1000 ev var. Adamı tutublar, indi altındakı qızıl yataqlarını sökməklə məşğuldular. Bəli, hələ ki, vəzifədə olduğu müddətdə satın aldığı 1000 evdən danışırlar. Bəlkə də bir az şişirtmə var və biz bu rəqəmi 10 dəfə azaldaq, olsun 100.**

Yaxşı, bir insan niyə özünə 100 ev alsın ki? Məntiqlə... Bəlkə də Türkiyə seriallarında deyilən kimi, "çapsız" olduğumuz üçün bu arzunun miqyasını anlaya bilmirik. Yəni bizim arzularımız da, fantaziyalarımız da elə pulqabımızın ölçüsü qədərdir. Yeri gəlib, yazım. Bir dəfə iclasda dünya üzrə lotereya qalibləri barədə yazı yazmağı tapşırdı baş redaktor. Bu günə qədər dünyadakı ən böyük lotereyanı kim udub, bu pullarla nə edib-filan. Sonra da dönüb məndən soruşdu ki, "sən lotereyada milyonlar udsan, ilk nə edərdin?" Bir saniyə belə düşünmədən dedim ki, "işdən çıxardım - bir daha səhərlər yuxuma haram qatmamaq üçün". Həmin vaxt hamımız xeyli gülüşdük. Arzuma yox, arzumun miqyasına, fantaziyamın sərhədinə, kasıblığın röyasına... daha nəyə, nəyə...

İndi biz o məlum məmuru istəsək də, anlaya bilmərik. Tutaq ki, evin birində ailən yaşayar, o biri 5-ni kirayəyə verərsən, birində sevgilin yaşayar, o birini başının dincliyi üçün özünə ayırarsan. Bəs qalan 93-nü nə edirsən, ay adam? İçində toyuq saxlayacaq deyilsən ki? Hərdən Abşeron bağlarından keçəndə diqqətimi cəlb edir. Qosqoca bağlar, villalar, salınmış ağaclar. Birinin işığı yanmaz günlərlə, aylarla. Amma bilirsən ki, bu evin tikilməsi üçün milyonlar xərclənib, bu şitillərin hər birini baha-baha alıblar, fontanlar qurublar içəridə. Bircə dəfə də ayaqlarını o torpağa uzadıb, ağacın dibində sərinlənməsələr belə. Çünki bizimkilər adətən yaşamağı bacarmırlar. Bəhsə girirlər, qonşunun bağrını çartlatmaq, yeznəyə yanıq vermək üçün edilir bir çox şeylər (Kreslo əldən gedən kimi o birilər də əldən gedir - S.T.) Bir çox hallarda da nəyi niyə etdiklərini bilmirlər.

Bizim uzun illərdən bəri tanıdığımız deputat Tahir Kərimli də o gün yenə niyə dediyi bəlli olmayan bir açıqlaması ilə gündəmə düşüb. Təqvimdəki ayların adını dəyişdirməyi təklif edib. Bundan öncə də himnimizin uzun olduğunu demiş, korrektələrə ehtiyac duyulduğunu vurğulamışdı. Hətta "Yeni Müsavat"ın canlı yayımına dəvət etdik onu, bu fikrini kövrələ-kövrələ, gözündəki yaşı silə-silə təkrarladı. Amma mən bu cəhdləri, çırpınışları anlayıram. Hamı kimi Tahir bəy də anlayır ki, ölkədə dəyişiləcək nəsə var. Hələ ki, adını tam deyə bilmir, amma necə deyərlər, proses gedir. Dünən himnin sözləri, bu gün ilin ayları, sabah... kim bilir?

İndi Tahir Kərimlini bir tərəfdən topa tutanların hansı məqamda nəyi ürəkdən, cəsarətlə dedikləri də mənimçün qosqoca sual işarəsidir. Yəni "dinimə söyən müsəlman olsa barı" söhbəti. Hələ bilmək olmaz, Kərimliyə verilən imkanlar, səlahiyyətlər bəzilərinə verilsəydi, nələrin adını nələrlə dəyişərdilər. Odur ki, meydana girməmiş heç kimi öncədən qəhrəman elan etməyə gərək yoxdur.

Qəhrəman demiş, günlərdir Mehman Hüseynovun durumu ilə bağlı yazılar yazır, canlı yayında müzakirələr keçiririk. Gənc içəridən məktub yazır, görüşlərində aclığı dayandırdığını deyir. Amma qardaşı, yaxınları iddia edir ki, aksiya davam edir. Axı bu aksiya özbaşına, keflə necə davam edə bilər? Adına aksiya deyilən nəsnədə bir tərəf olur: aksiyanı keçirən. O da "mən süd məhsulları qəbul edərək aksiyamı dayandırmışam" deyir. Bu halda bir insanı zorən dalana dirəmək, azadlıqda olmaqdan, haqsız yerə şərlənməni aradan qaldırmaqdan başqa heç bir arzusu olmayan gəncin çiyinlərinə bu qədər yük yükləmək nəyə lazım? İnsanları uçurumun kənarına qədər "sən aslansan, sən bəbirsən" deyib, sürükləmək nəyə lazım? Hər kəsin psixologiyası, dözüm limiti eyni dərəcədə deyil axı. İntihar anonslarını eşidib, gözü parıldayanları doğrudanmı uzaqdan fərq etmirsiz?

Sonradan qəhrəman olunmur. Zorən də olunmur. İmkan verin, insanlar həyatlarını yaşasınlar. Azadlığa çıxmaq üçün mümkün şanslarını dəyərləndirsinlər. Ağzınızın şirəsini bir zəhmət udun...

# Əməkdaşımız Bakıdakı donuz fermasında oldu

## Donuz qripinin tüğyan etdiyi Gürcüstandan ölkəmizə heyvan gətirilmir; ən zox donuz isə İvanovkada saxlanılır

**Bu reportajı hazırlamağa başlayanda Gürcüstanda daha bir nəfərin - 26 yaşlı gənc ananın "donuz qripi"ndən öldüyü xəbəri yayıldı. Qonşu ölkədə "H1 N1" virusunun tüğyan eləməsi və 15 nəfərin tələf olması bu xəstəliklə bağlı Azərbaycanda donuzçuluq təsərrüfatlarındakı vəziyyətin nə yerdə olması, həmin heyvanların virus daşıyıcısı olub-olmadığını araşdırmaq zərurəti yaradır.**

Bu məqsədlə Qobu kəndində donuzçuluq təsərrüfatı olan fermer İsgəndərlə söhbətləşdik. Onun sözlərinə görə, Zirə, Hövsan və Qobuda donuz saxlayanlar var: "Bildiyim qədər, hazırda Zirədə 5 min, Qobuda 600 baş donuz saxlanır. Bu heyvanlar Ukrayna sortlarıdır. Onlar da iki cins olur: palazqulaq və qulağı dik olan. Azərbaycanda ən çox isə İsmayıllının İvanovka kəndində donuz saxlanır. Fərqlərinə gəlincə, qulağı sallaq olanlar daha iri olurlar, artıq çəkiyə malikdirlər. Yaxşı baxılsa ildə 3 dəfə bala verirlər, dik olanlar isə aktivdirlər, çox hərəkət edirlər, arıqlayırlar".

İsgəndər deyir ki, Azərbaycana donuz üç ölkədən gətirilib: "Rusiya, Ukrayna və Belarusdan. Gürcüstandan Azərbaycana donuz gətirilmir. Ona görə bu heyvanlarda hansısa virus təhlükəsi olması inandırıcı deyil".

Fermer İsgəndərin sözlərinə görə, Azərbaycanda qoyun-mala nisbətən donuza tələbat həddindən azdır: "Əsas kolbasada istifadə olunur. Bilirsiniz ki, o piyi vurmasalar, kolbasada həmin dad əldə oluna bilməz. Ona görə ən çox restoranlar və kolbasa sexləri bizdən donuz əti alır. Bir dəfəyə 16-18 bala verəni olub. Maksimum 21 bala verəni də olub. Əsasən çoşkaların alıcısı çoxdur".

Təsərrüfat sahibi onların kökəlməsində arpa, kəpək və kartofdan istifadə edir: "Ən çox qidalanmasında hərbidən gələn "otxod"lardan istifadə edilir. Zay meyvə-tərəvəz verilir. Biz daha çox çörək, kəpək veririk. Onlar çox gəzməsə, daha artıq ət verirlər. Gəzəndə arıqlayırlar. Ətli heyvanlar 1 metr yarım uzunluğunda, 80 sm eni "reşotka"lara salınır. Donuz özü fırlana bilmir. Su və yemi gəlir, yeyir, oturur. Bu zaman daha çox ətlənirlər".

Gürcüstanda yayılmış virusa gəlincə, İsgəndər deyir ki, bu heyvanlara 4 aydan bir vaksinlər vurulur: "Onlara baytarlıq xidmətindən antiviruslar vurulur. Doğulanda 3 günlükdə 1 qram, 1 həftəliyində yenə qan iynəsi vurulur. 6 aylığında isə müalicə olunur. Əslində, sizə deyim ki, nadir hallarda xəstələnən heyvanlardır. Yəni bu heyvanlar bizim qidalandığımız halal heyvanlarla müqayisədə az xəstələnirlər. Ancaq biz hələ ki donuzlarda virus aşkarlanması ilə rastlaşmamışıq. Üstəlik, Gürcüstandan bizə bu heyvan sortları gəlmir. Dediyim kimi, Rusiya, Ukrayna sortlarına üstünlük verilir. Bu halda virusun onlardan bizə yayılması gözlənilən deyil".

Hazırda donuz əti kilosunun hər yerdə standart - 4 manat 50 qəpik olduğunu deyən həmsöhbətimizin sözlərinə görə, məhsulu qəssablar alır və kolbasa sexlərinə paylayırlar.

Bu heyvanların saxlanma şəraitinə gəlincə, İsgəndər danışır ki, mal-qaradan və yaşayış məntəqəsindən 3 kilometr aralı olmalıdır: "Onların insana xəsarət yetirmək ehtimalı yoxdur. Bizim Ukrayna, Rusiya, Belarus sortlarına üstünlük verməyimizin səbəbi çəkidə artım daha çox vermələri, təmiz olmalarıdır. Bizimkilər isə çöl qabanıdır, cır və aktiv olurlar, arıqlayırlar, bala çox vermir, qara, tüklü olurlar. Ruslardan gələn sortda isə bir ildə 1 donuz 30-dan çox bala verə bilir. Amma indi nə Ukraynadan, nə Rusiyadan bu heyvanlar gətirilir. Çünki illər əvvəl gətirilən sortlar artım verir, çoxalırlar. Bunun da əsas mərkəzi İvanovkadır. Biz istəyərik ki, dövlətdən maddi kömək göstərilsin, heyvan sayını artıraq, yaxşı yer ayrılsın. Bu zaman fermerlər daha çox olar. Necə ki, qoyunçuluğa, pambığa güzəştli kreditlər verilir, bizə də verilsə təsərrüfatı böyütmək olar".

Qeyd edək ki, müxtəlif elan saytlarında da bu heyvanların satışına rast gəlmək olur. Onlardan birinə - Habil adlı şəxsə zəng edərək maraqlandıq. Dedi ki, artıq təsərrüfatını ləğv edib: "Qardaş, bir heyvan idi, alan kimi bala verdi. Amma əziyyəti çoxdur. Həyət də balaca idi, saxlamaq çətin oldu. Biz onu alanda qan analizindən keçdi, təmiz çıxdı. Sadəcə, əziyyəti var. Məsələn, həyətdə qışqırır, böyürür, uşaqları narahat edirdi. İndi də deyirlər ki, "donuz qripi" yayılıb. Yaxşı ki, satmışam".

Digər biri - Ağəli adlı şəxs isə internetdə yazıb ki, paytaxtda süni şəkildə yaradılmış donuz monopoliyası var: "Böyük donuz fermalarına sahib olan şəxslər onun artmasına süni əngəllər yaradırlar. Böyük təsərrüfat sahibləri heyvanları satmırlar, qida problemi yaradırlar, bütün satış məntəqələri bunların nəzarətindədir. İri fermerlər sənin malına baxanda qərəzli şəkildə başqa yerlərdə pisləyirlər, bazarını öldürürlər. Bu da fermerin imicini müəyyənləşdirir".

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda 2018-ci ilin 1 yanvar vəziyyətinə görə 4,9 min baş donuz olub.







### Yolçu Xanvəli: "Donuzçuluq təsərrüfatlarında peyvəndləmə, aparılır"

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) mətbuat katibi Yolçu Xanvəli yanvarın 11-də modern.az-a bildirib ki, İsmayıllı, Qax və digər rayonlardakı donuzçuluq təsərrüfatlarında iti yoluxucu xəstəliklərə qarşı profilaktiki peyvəndləmə, diaqnostik müayinə, dezinfeksiya və dezinseksiya tədbirləri aparılır:"Həm Gürcüstanda yayılan "donuz qripi" xəstəliyinin ölkəmizə keçməsinin qarşısını almaq, həm də təsərrüfatlarda epizootoloji sabitliyi təmin etmək məqsədilə donuzçuluq təsərrüfatlarına mütəmadi baytarlıq baxışı keçirilir və təsərrüfatlarda dezinfeksiya tədbirləri aparılır".

Qurum sözçüsü bildirib ki, ölkədə böyük donuzçuluq təsərrüfatları yoxdur. Mövcud olanlarda isə 25-30, ən çox isə 100 baş donuz saxlanılır.

### GEM rəsmisi: "Xəstəliyin yoluxma mənbəyi insanlar və donuzlardır"

Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva mətbuata bildirib ki, hazırda Azərbaycanda vəziyyət sabitdir. Oktyabr ayından etibarən 280-dən yuxarı insandan nümunə götürülüb və hər hansı təhlükəli virus aşkar olunmayıb. Ancaq yoluxma baş verərsə və viruslu insan qeydə alınarsa, bunun üçün Bakıda Ağciyər Xəstəlikləri İnstitutu, Kliniki Tibbi Mərkəz və 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasında xüsusi palatalar hazırlanıb.

Afaq Əliyeva onu da bildirib ki, donuz qripinin əsas yoluxma mənbəyi insanlar və heyvanlar - yəni donuzlardır. Bu virus hava-damcı yolu ilə yoluxduğundan qida məhsullarından keçmək riski çox deyil.

❑ Emìl SALAMOĞLU, "Yenì Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019



# Qarabağ danışıqları başlayır - köhnə "dairə" üzrə hərəkətə davam, yoxsa?

**Bakıdan ismarış:** "Ermənistanın yalnız bir yolu qalıb..."; **amerikalı analitik:** "Paşinyan öz legitimliyindən istifadə edib Azərbaycanla həqiqi sülh prosesini reallaşdırmağa çalışa bilər"

**Təzə ilin ilk ayında Qarabağa dair sülh danışıqlarının davamı gözlənilir. Xəbər verildiyi kimi, yanvar ayında Azərbaycan və Ermənistanın XİN rəhbərləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan arasında növbəti görüşün keçirilməsi nəzərdə tutulub. ATƏT-in Minsk Qrupu həmsədrlərinin ötən ilsonu verdikləri bəyanatdan aydın olur ki, budəfəki görüş də vasitəçilərin iştirakı ilə reallaşacaq.**




Xatırladaq ki, diplomatlar arasında sonuncu görüş keçən ilin dekabrında Milanda, ATƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin toplantısı çərçivəsində baş tutmuş və 3 saatdan çox çəkmişdi. Görüşdən bir neçə gün sonra verdiyi açıqlamada isə Məmmədyarov Dağlıq Qarabağla bağlı erməni həmkarı ilə hətta ilkin anlaşma əldə edildiyini söyləmişdi.

Söhbətin hansı anlaşmadan getdiyi hələlik bəlli deyil. Lakin rəsmi Bakı 2019-cu ilin Dağlıq Qarabağ probleminin həllində dönüş yaratmaq baxımından ümidverici il ola biləcəyini bəyan edib. Əks halda, işğalçı ölkənin indikindən daha acınacaqlı duruma düşəcəyi barədə xəbərdarlıq edib. Sözsüz ki, aprel əməliyyatlarının təkrarlanması da istisna olunmur. Odur ki, bir sual öz aktuallığını saxlayır: sülh danışıqları yenə real nəticəyə gətirməyən köhnə "dairə" üzrə gedəcək, yoxsa? Bir şeyi yəqinliklə vurğulamaq olar ki, bu il Bakı danışıqlar xətrinə danışıqlara getməyəcək.

*****

"Keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi".

Bu fikirləri ötən həftəsonu prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib. Dövlət başçısı deyib: "Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni əhalinin azalması prosesi geniş vüsət alıb. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı".

İlham Əliyev onu da bildirib ki, mövcud ağır, böhranlı vəziyyətdə Ermənistanın yalnız bir çıxış yolu var: Azərbaycanla münasibətləri normallaşdırmaq. "Biz buna hazırıq. Ancaq bunun üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən çıxarılmalıdır".

*****

Əlbəttə ki, çox şey yeni yaranmış vəziyyətdən ölkənin təzə rəhbərliyinin - Nikol Paşinyan hökumətinin necə istifadə edəcəyindən, yeni situasiyanı nə dərəcədə adekvat qiymətləndirəcəyindən asılı olacaq. Azərbaycan rəhbərliyinin bir neçə dəfə bəyan elədiyi kimi, əgər təzə iqtidar bundan unikal bir fürsət, şans kimi yararlanıb sələflərindən fərqli olaraq, Qarabağ məsələsində ədalətli mövqe tuta, nəticə etibarilə Azərbaycan və Türkiyə ilə əlaqələri düzəldə bilsə, o zaman udușda ilk növbədə erməni xalqı olacaq.

Başqa halda, işğalçı ölkə və xalqının məhrumiyyətləri artacaq, blokada rejimi daha da sərtləşəcək, münaqişə zonasında müharibə riski böyüyəcək, Ermənistanın Rusiyadan asılılığı azalmaq əvəzinə artacaq. Bir sözlə, seçim həmişəki kimi, İrəvanın, Paşinyan hökumətinin olacaq. Bəs rəsmi İrəvan hansı seçimə meyllənəcək?

"Ermənistanın yeni hökumətindən söhbət gedirsə, düşünürəm ki, ən azından, yaxın zamanda biz ciddi dəyişikliklər müşahidə eləməyəcəyik". "Yeni Müsavat" qəzetinin məlumatına görə, bunu Vaşinqtondakı Kornegi Fondunun Şərqi Avropa və Qafqaz regionu məsələləri üzrə böyük elmi əməkdaşı, bölgə ilə bağlı çoxsaylı təhlillərin və "Qara və bağ" kitabının müəllifi Tomas de Vaal "Vestnik Kavkaza" portalına deyib.

Onun sözlərinə görə, Nikol Paşinyan üçün hələlik prioritet məsələ iqtisadi islahatlar, korrupsiya ilə mübarizə və inhisarçılıqdan qurtulmaq olacaq. "Əlbəttə ki, o, Qarabağ prosesini qəlizləşdirməməyə çalışacaq. Bununla belə, o, Qarabağ ermənilərini məyus eləməyi də özünə rəva bilməyəcək. Axı faktiki şəkildə 1998-ci ildə məhz buna görə Ermənistan prezidenti Levon Ter-Petrosyan hakimiyyətdən devrilib. Ona görə də Paşinyan status-kvonu saxlamağa çalışacaq. Ancaq Bakı da öz tərəfindən ya daha fəal sülh prosesinə nail olmaq, ya da situasiyanı fəal hərəkətləri ilə silkələmək istəyir", - deyə o qeyd edib.

Tomas de Vaala görə, Ermənistan hakimiyyəti zamanla öz legitimliyindən istifadə edib Azərbaycanla birgə həqiqi sülh prosesini reallaşdırmağa cəhd göstərə, eyni zamanda, erməni ictimaiyyətini Bakı ilə sülhün dəyərinin müzakirəsində maraqlı edə bilər. "Lakin bu, zaman alacaq. Bundan əlavə, Ermənistanın getməyə hazır olacağı kompromislər, böyük yəqinliklə azərbaycanlılar üçün yetərli olmayacaq. Ancaq çox illər sonra "liberal sülh" əldə oluna bilər, əgər hər iki tərəfdən demokratik və qanuni hökumətlər bir-biri ilə danışacaqsa", - deyə analitik əlavə edib.

*****

Bunlar amerikalı analitikin təxminləridir. Məsələ ondadır ki, Paşinyanın həyata keçirmək istədiyi islahatlar Dağlıq Qarabağ məsələsində ciddi dönüş yaranmadan, Azərbaycan və Türkiyə ilə əlaqələr qismən qaydaya salınmadan mümkünsüzsür. Ən əsası, iki mühüm qonşu ilə normal münasibətlər ilk növbədə Ermənistanın təhlükəsizliyi üçün vacibdir. Bunun xaricində hər hansı islahatın və ya korrupsiya ilə, inhisarçılıqla mübarizə aparmağın anlamı və dəyəri qalmır. Nikol Pşainyan da sələfləri kimi, çox tezliklə buna əminlik hasil edəcək və Ermənistan üçün yeganə qurtuluş yolunun Qarabağ məsələsində Azərbaycanla anlaşmaq olduğunu dərk edəcək...



## 650 ailə Ermənistanı tərk edə bilər: zavod bağlandı, ara qarışdı...

**Ermənistandakı Alaverdi mis email kombinatının fəaliyyəti 19 oktyabrdan etibarən dayandırılıb. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu səbəbdən kombinatın işçiləri etiraza qalxıblar. Belə ki, 600-ə yaxın işçi bu gün hökumətin qərarına qarşı çıxaraq Ermənistan-Gürcüstan dövlətlərarası yolunu bir saat ərzində bağlayıblar.**

"SOS Alaverdi" təşəbbüs qrupunun üzvü Oleq Dulqaryan deyib ki, fəhlələrlə yanaşı, zavodun rəhbərliyi də aksiyada iştirak edir: "Düzdür, əməkdaşlar hələlik rəsmən işdən çıxarılmayıb. Amma artıq zavod texniki olaraq işləmir".

O, bildirib ki, zavodun sahibi Valeri Medjlumyan və baş nazirin müavini vəzifəsini icra edən Tiqran Avinyanla görüşəcəklər. Zavodda 630 nəfərin çalışdığı bildirilir. Artıq fəhlələrə erməni müxalifətindən də dəstək gəlib. Müxalifətdə olan Respublikaçılar Partiyasının mətbuat katibi, Milli Məclisin vitse-spikeri Eduard Şarmazanov baş nazir vəzifəsini icra edən N.Paşinyana məktub yazıb. O, bildirib ki, zavodun qapadılması nəticəsində 650-yə yaxın əməkdaş faktiki olaraq, çörəksiz qalacaq.

Alaverdidə doğulduğunu qeyd edən Şarmazanov zavodun fəaliyyət göstərməsini xahiş edib: "Əks halda, 650 ailə ölkəni tərk edə bilər. Zavodun bağlanması qəbuledilməzdir və ağır nəticələr vəd edir. Bu mübarizədə mən öz həmvətənlərimlə bir yerdə olacağam".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019

# Türkiyə Suriya əməliyyatını niyə gecikdirir?

## Ekspertlər səbəblərdən danışdılar

**Türkiyənin Suriya əməliyyatını yubandırması suallar doğurub. Çoxları hesab edir ki, rəsmi Ankara gec-tez bu əməliyyatları mütləq həyata keçirəcək, sadəcə, uyğun zamanı gözləyir. Bölgədə maraqları olan bütün dövlətlərlə müəyyən razılığa gələndən sonra qardaş ölkənin hərəkətə keçəcəyi bildirilir.**



Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu məsələni "Yeni Müsavat"a bu cür şərh etdi: "Türkiyənin Suriyada növbəti dəfə hərbi əməliyyata başlamamasının obyektiv səbəbi var. ABŞ prezidenti Donald Tramp əvvəlcə dedi ki, Amerikanın qoşunları Suriyanı tərk edəcək. Ankara Trampın bu qərarını sevinclə qarşıladı. Çünki Trampın bu qərarı Türkiyə qoşunlarının Fəratın şərqinə doğru irəriləməsinə yol açırdı. Ancaq daha sonra Tramp Amerikadakı dərin dövlətin müqavimətiylə üzləşərək Suriyadan çıxma qərarından vaz keçdi. ABŞ rəsmiləri açıq dedilər ki, Suriyadakı kürdləri müdafiəsiz qoymaq istəmirlər. Bu, o deməkdir ki, Türkiyə ordusunun PYD və YPG-ni məğlub etməsini istəmirlər. Belə olan halda Türkiyə perzidenti Rəcəb Tayyib Ərdoğan bir qədər gözləmə mövqeyinə keçmək məcburiyyətində qaldı. Doğrudur, Ərdoğan son çıxışlarında "qəfil gələ bilərik" ifadəsini işlədir, ancaq o, riskləri də hesablamamış deyil. Risk isə budur ki, ABŞ qoşunları kürd bölgələrində ikən Türkiyə ordusunun rahat irəriləməsi problematikdir. Türkiyə ordusu ABŞ hərbçiləri ilə üzləşə bilər, nəticədə hər iki tərəf döyüşə qatılaraq itki verəcək. Bu isə onilliklərin müttəfiqləri arasında gərginlik yaradacaq. Bunu nə ABŞ, nə də Türkiyə istəyir. Buna baxmayaraq, Ankara Suriyada YPG və PYD varlığına əbədiyyətə qədər dözmək fikrində deyil. PYD və YPG silahlılarının sayı PKK silahlılarının sayından dəfələrlə çoxdur. Yəni zaman keçdikcə PYD və YPG Suriyada daha da möhkəmlənəcək. Ankara buna yol vermək istəmir. Suriya ərazisində müstəqil kürd anklavının yaradılması gələcəkdə Türkiyəyə təhlükə yaradacaq. Ona görə də Ankara məsələnin uzanmasına yol verə bilməz. Çox çətin durumdur. Ancaq bir yol tapılmalıdır. Fikrimcə, Ankaranın Suriya prezidenti Bəşər Əsədlə də təmaslara başlamasına ehtiyac var. Əsəd 4 il əvvəlki kimi zəif deyil. O, Rusiya və İranın dəstəyi ilə yenidən ölkənin əsas ərazilərinə nəzarəti ələ keçirdi. Bunun nəticəsidir ki, "Əsəd getməlidir" deyən bir sıra ərəb ölkələri yenidən Dəməşqdə səfirliklərinin açılması barədə düşünürlər. Siyasət mümkün olanın reallaşdırılmasıdır. Əlbəttə, Əsəd çox insanın qətlində günahkardır və vaxtilə buna görə Ankara onunla bütün körpüləri yandırdı. Ancaq reallıq odur ki, Əsəd və onun ordusu yenidən güc qazanıb. Əsədlə kürdlərin ittifaqı Türkiyənin əleyhinədir. Ona görə də nə qədər ki, bu ittifaq yaranmayıb Moskva və ya Tehran üzərindən Əsədlə təmaslara başlamaq Türkiyənin maraqlarına cavab verəcək".

Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli hesab edir ki, rəsmi Ankaranın əməliyyatlara başlamaması daha çox risklər ortaya çıxarır: "Türkiyə bu əməliyyatı mütləq həyata keçirməlidir. Sadəcə, vəziyyəti qiymətləndirmək üçün növbəti dəfə Fərat çayının sol sahilinə başlayacaq əməliyyat müvəqqəti olaraq təxirə salındı. Buna əsas səbəb isə Trampın Suriyadan çəkilməklə bağlı qərarı oldu. Belə olan halda isə Türkiyənin bura ilə bağlı ssenarisi dəyişdi və Boltonun Türkiyəyə gəlişini gözləməyə başladılar. Çünki ABŞ-ın buradan nə cür gedəcək sualı cavabsız qalmışdı. Tərəddüd sırf bununla bağlı idi. Amma Boltonun Ankarada sinifdə qalması bu tərəddüdü yekunlaşdırdı. İndi artıq Türkiyə detal mərhələsini müzakirə edir. Türkiyə əməliyyatın detallarını Rusiya, İran və ABŞ arasındakı gərgin müzakirələrdən sonra müəyyən edəcək. Bu baxımdan müəyyən risklər mövcuddur. Amma əsas risk əməliyyatın keçirilməsində yox, keçirilməməsindədir. Çünki status-kvoda yetişmiş şərait imkan verir ki, Türkiyə PYD ilə nəhayət hesablaşa biləcək. Əməliyyatların bir ay gecikməsi Türkiyə üçün qarşısı alınmaz risklər doğurur. Bu riskləri doğuran bir çox amillər var. PYD ABŞ-ın geri çəkilməsindən sonra sahibsiz qala bilər və bu zaman PYD-nin İranla yaxınlaşma ehtimalları yaranır. Trampın dilindən Suriyadan çəkilirik bəyanatı çıxıbsa, tezliklə Türkiyə bundan istifadə edib Fəratın sol sahilində əməliyyat həyata keçirməlidir. Çünki Amerikanın bundan sonra hansı addımları atacağı məlum deyil. Digər risk yaradan amil ondan ibarətdir ki, Fəratın sol sahilindəki PYD amili ortadan qalxarsa, İŞİD-ın həmin bölgədə güc əldə etməsi və Türkiyəyə qarşı cəbhə boyu təhlükə yaratması deməkdir. Türkiyə ciddi şəkildə bu məsələləri dəyərləndirməlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Mariya Zaxarova kimin dili ilə Azərbaycanı hədələyir?

## Politoloqlar bunun daha çox Rusiya XİN-in mövqeyi olduğunu deyirlər

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova yenə də erməni təəssübkeşliyini nümayiş etdirib, növbəti dəfə Azərbaycana qarşı bəyanat verib. Xəbər verildiyi kimi, ötən həftəsonu o, keçirdiyi brifinqdə erməni mənşəli Rusiya vətəndaşlarının Azərbaycana buraxılmamasından danışıb və ölkəmizi ittiham edib.**



Zaxarovanın bu açıqlamasına Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva sərt cavab verib. L.Abdullayeva Azərbaycanın hər zaman Rusiya vətəndaşları üçün açıq olduğunu xatırladıb: "Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə yaxşı bəllidir ki, uzun illər ərzində Ermənistan Azərbaycana qarşı işğalçı siyasət aparır və bu siyasət nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu işğal edilib, bir milyondan artıq insan etnik təmizləməyə məruz qalaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan silahlı qüvvələrinin 1992-ci 26 fevral tarixində törətdiyi Xocalı soyqırımı nəticəsində aralarında azyaşlı uşaqlar, qadınlar və yaşlı insanlar olmaqla 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilib. BMT Təhlükəsizlik Şurasının 1993-cu il tarixli məlum 4 qətnaməsində (822, 853, 874 və 884) işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxardılması və bu ərazilərdən zorla qovulmuş insanların öz doğma yurd-yuvalarına geri qayıtması tələbi əks olunub. Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi sözügedən qətnamələrin qəbul olunmasına səs verib. Lakin 25 ildən artıqdır ki, Azərbaycan torpaqları işğal altındadır və bu qətnamələrin tələbləri icra olunmur. Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzi kimi tanınır. Azərbaycan Ermənistandan fərqli olaraq çoxmillətli dövlətdir. Bir çox xalqların, o cümlədən erməni xalqının nümayəndələri Azərbaycan Respublikasında sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Hazırda ölkəmizdə 30 mindən çox erməni əsilli Azərbaycan vətəndaşı yaşayır. Ermənistan isə monoetnik dövlətdir. Azərbaycan və Rusiya prezidentləri səviyyəsində keçirilmiş çoxsaylı görüşlərdə Azərbaycanın bu istiqamətdə fəaliyyət və səyləri Rusiya tərəfindən yüksək qiymətləndirilir. Ermənistanda erməni əsilli uşaqlara rusdilli məktəblərdə təhsil almaq məhdudiyyəti qoyulduğu halda, Azərbaycanda 340-dan çox rus dilində tədris müəssisələri vardır. Ermənistanda isə belə məktəbləri barmaqla saymaq olar. Azərbaycan hər zaman Rusiya vətəndaşları üçün açıqdır. Yalnız 2018-ci ildə 880 min Rusiya vətəndaşı ölkəmizdə səfərdə olub və onlar tərəfindən bir dəfə də olsun göstərilən məsələlər ilə bağlı şikayət olunmayıb. Səfər edən Rusiya vətəndaşlarının böyük əksəriyyəti səfərlərindən məmnun qalıb və göstərilmiş qonaqpərvərliyə görə təşəkkürlərini bildiriblər. Səfər edənlər arasında erməni əsilli Rusiya vətəndaşları da olub. Eyni zamanda, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə, idman yarışlarında, mədəni tədbirlərdə nəinki erməni əsilli Rusiya vətəndaşları, hətta Ermənistan vətəndaşları da iştirak edib və onların heç bir problemi olmayıb".

XİN sözçüsü təəssüflə bildirib ki, Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibinin ikitərəfli strateji münasibətlərin ruhuna zidd olan bəyanatla çıxış etməsi ilk dəfə deyil: "RF XİN mətbuat katibi bəyan edib ki, "Azərbaycan tərəfi söz verib ki, bu vəziyyəti düzəldəcəkdir". Biz bunu qətiyyətlə təkzib edirik. Azərbaycan-Rusiya münasibətləri bərabərhüquqlu əlaqələrdir və "vəziyyəti düzəldəcəklər" ifadəsi ikitərəfli münasibətlərin mahiyyətinə ziddir. Əminik ki, Rusiya XİN-in mətbuat katibinin növbəti təxribat xarakterli və anti-Azərbaycan bəyanatı Azərbaycan-Rusiya əlaqələrinə mənfi təsir göstərməyəcək".

Politoloq Nəzakət Məmmədova bildirdi ki, Mariya Zaxarovanın erməni millətindən olan Rusiya vətəndaşının Azərbaycana buraxılmamasına görə bəyanatı iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinə zidd fikirlərdən ibarətdir: "Görünür, Azərbaycanla Rusiya arasında münasibətlərin getdikcə daha da yaxınlaşması Rusiyanın diplomatiya idarəsindən daha çox, ermənilərin kök saldığı, onların maraqlarının müdafiəçisi kimi çıxış edən Rusiya XİN-də bəzi şəxslər arasında narahatlıq yaradıb. Hesab edirəm ki, Zaxarovanın bu sözləri Vladimir Putinin deyil, Sergey Lavrovun və XİN-də kök atmış ermənilərin istədiyi mövqedir".

Politoloq vurğuladı ki, Azərbaycan suveren dövlət kimi öz ərazisinə əcnəbi vətəndaşları buraxıb-buraxmamaq hüququna malikdir: "Konkret olaraq erməni millətindən olan şəxsin ölkəyə daxil olmasına icazə verilməzsə, bunun bir sıra, o cümlədən də təhlükəsizlik nöqteyi-nəzərindən səbəbləri ola bilər. Azərbaycan suveren dövlətdir və heç kəsin buna görə ölkəmizi tənqid etmək və ya irad bildirməyə ixtiyarı yoxdur. Dövlət sərhədindən keçidə icazənin verilib-verilməməsi hər bir ölkənin öz hüququdur. Üstəlik, söhbət erməni soyadı daşıyan şəxslərdən gedirsə, bunu anlamaq çətin deyil. Çünki biz 30 ilə yaxındır Ermənistanla müharibə şəraitindəyik. Ermənistan Azərbaycan torpaqlarını hələ də işğalda saxlayır, hər gün atəşkəsi pozur. İndiyə qədər Azərbaycana qarşı çoxsaylı terror-təxribat fəaliyyəti də olub və onları çox zaman Rusiyada yaşayan ermənilər törədib. Zaxarova və onu danışdıranlar bunları unutmamalıdırlar. Digər tərəfdən, Azərbaycanda indi də minlərlə erməninin yaşadığını, eyni zamanda beynəlxalq idman, siyasi, mədəni tədbirlər zamanı ermənilin buraya gəldiklərini nəzərə alsınlar. Elə Zaxarovanın özünün də ötən il iştirak etdiyi "Jara" festivalında erməni qarışığı olan müğənni Zaranın buraya gəlməsi Rusiya XİN sözçüsünün dediklərini təkzib edir".

N. Məmmədova bildirdi ki, Mariya Zaxarova Rusiya vətəndaşlarının qayğısına qalırsa, o zaman 5 ilə yaxındır ermənilərin girovluğunda olan Rusiya vətəndaşı Dilqəm Əsgərovun azad olunmasına çağırış etsin.

Politoloq Əhəd Məmmədli isə qeyd etdi ki, Rusiya XİN-də ermənilər həmişə azərbaycanlılardan güclü olub: "Mariya Zaxarova da orada ermənilərin adamı kimi tanınır. Ermənilərin Rusiyada bir nömrəli adamı bir tərəfi erməni olan xarici işlər naziri Sergey Lavrovdur. Lavrov Putin iqtidarının əsas simalarındandır. Zaxarovanın da Lavrovla çox isti münasibətləri var. Ona görə hələ Zaxarova çox anti-Azərbaycan bəyanatlarını verəcək. O, Lavrovun demək istədiklərini deyir. Amma bu, o demək deyil ki, bütün bunlardan Putinin xəbəri yoxdur".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# “Demokratiya budursa, mən bunu istəmirəm”

## Fikrət Qoca: “Torpaqlarımızın geri qayıtmasını, Şuşanı yenidən görmək istəyirəm”

**“Yeni Müsavat”ın budəfəki müsahibi Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi Fikrət Qocadır. 84 yaşlı Xalq şairi ilə çalışdığı AYB-də görüşüb, söhbətləşdik:**

***- Fikrət müəllim, necəsiz? Bundan əvvəl bir neçə dəfə sizinlə əlaqə saxlayanda ABŞ-da səfərdə olduğunuzu, orada müalicə aldığınızı bildirirdiz? Hazırda vəziyyətiniz nə yerdədir?***

- Babatam. Bu yaşda adam necə olar, ay qızım? Xəstəlik-zad, bunların hamısı boş söhbətdir, bəhanədir. Çünki artıq 84 yaşım var, 85-ə keçəcəm.

***- Bəzən kimlərsə Amerikanı insanların daha xoşbəxt yaşaya biləcəyi ən münasib, ideal ölkə hesab edir, oradakı həyatı arzulayır. Dəfələrlə Amerikada səfərdə olan bir azərbaycanlı kimi, oradakı yaşayış tərzini, ab-havanı necə tərənnüm edərdiz?***

- Həyatım boyu səfərlərdə olmuşam, gəzmişəm. Əvvəlcə müqayisə üçün, daha sonra isə mövzu dalınca gəzmişəm. Zamanında ölkəmiz müstəmləkə altında olanda xarici ölkələrə gedib qəhrəmanları axtarırdım - hansı ki, onlar öz ölkələrini müstəmləkədən qurtarmışdılar. Daha sonra isə dillərin batmasını araşdırırdım. Məsələn, iki dildən yaranmış tayfalar var idi. O zaman Portuqaliyada belə bir qərar verilmişdi ki, keçmiş dustaqları artıq “yemləməsinlər”. Bunun üçün də dustaqların qarşısına belə bir şərt qoyurdular ki, “səni Afrikaya göndəririk, get orda azad yaşa, işlə, özünə həyat qur. Sən orada da cinayət törədəcəksənsə, cəzan ölüm olacaq”. Əgər dustaq kişi idisə, afrikalı qadınla, qadın idisə oradan olan kişi ilə evlənirdi. Həmin izdivacdan olan uşaqları Portuqaliyaya gətirib oxutdurur, təhsil verir, qayğısına qalırdılar. Beləliklə, həmin uşaqlar Portuqaliya dilində tərbiyə alır, öz ana dillərini bilmir və yaxud pis bilirdilər. Onlar sonradan böyüyəndə hər iki ölkənin uşağı olduğu üçün Portiqaliyaya xəyanət etmirdi. Bununla belə ilk inqilab elə Qvineyada oldu. Portuqaliyada böyüyüb təhsil alan uşaqlar öz ölkələrini müstəmləkədən xilas etdilər. Lakin onların arasında öz ölkəsinə qəddar yanaşanlar da var idi. Yəni bu cür faktları yaxından öyrənməyə çalışırdım. Çünki öyrənəcəyimiz çox şey var idi.

İndi də bu çağımda, xəstə vaxtımda Amerikaya səfərlərə gedirəm. Əvvəla, orada qızım yaşayır, bəhanəylə gedib onu görürəm. Həm də oradakı dünyanı, insanları müşahidə edirəm. Bəzən burada Amerikadakı yaşayış haqqında elə tərifli sözlər danışırlar ki, deyirəm bəlkə mən yaxşı görməmişəm. Bir daha gedib görəndə daha yaxşı müşahidə etməyə çalışıram, yenə də qərara gəlirəm ki, yox əşi, mən Amerikada yaşaya bilmərəm. Çünki orada həyətindəki ot belə sənin ixtiyarında deyil. Əgər otu yaxşı biçməsən, sənə çox ağır cərimə cəzası verə bilərlər.

Bir dəfə Anarla orada səfərdə idik. Yolun kənarında gedəndə gördük ki, bir nəfər tələsik evindən çıxıb, bağçasındakı qırmızı güllərin arasında bitən bir ağ gülü kəsib atdı. Bunu nədən etdiyini soruşanda dedi ki, “bütün güllər eyni olmalıdır, təsadüfən aralarında başqa rəngdə gül olarsa, cərimələnə bilərəm”. Yəni sən öz həyətindəki gülün, hətta araşdıranda məlum olur ki, evinin də sahibi deyilsən. Əgər səhəri gün işini itirsən, o evi də saxlaya bilməyəcəksən.





Deyirlər orada maaş yüksəkdir, bəli, bu doğrudur. Məsələn, kürəkənim orada aylıq olaraq 10 min dollar təqaüd alır. Lakin xərcləri elə burdakı kimi olur, yəni ayın sonuna bəzən görürsən ki, maaşın çatmır. Yəni bəzən kənardan görünən işıltını, pərdənin arxasını yaxşı görə bilmirik. Bunun üçün ehtiyatlı olmalıyıq. Uzaqdan yaşıl görünən dağlar bizi həmişə özünə cəlb edir, elə bilirsən ki, orada olsan yaşıllığın içərisində yumarlanıb, aşağı düşə bilərsən. Lakin yaxın gəldikdə görürsən ki, bu yaşıllıq heç də hamar deyil, onun arasında daş da, tikan da var, rahatca yumarlana, yumarlanıb aşağı düşə bilməzsən. Həyat tərzi də belədir. Bunun üçün də yüz kitab oxuyunca, get, gör.

Bəzən insanlar öz gözündəki tiri görmür, başqasının gözündə qıl, səhv axtarır, halbuki özü nə haldadır. Fransa bizə demokratiya öyrədir, amma 2-3 həftədir insanları küçələrdədir. Qadınlar da bu aksiyalar qoşulur, düşünür ki, onlara əl qaldırmazlar, lakin onları da döyür, saçından tutub sürüyürlər. Demokratiya budursa, mən bunu istəmirəm. İnsanlar öz hüquqlarını tələb edirlər. Əvvəlcə səs verib Makronu seçdilər, hətta cinsi azlıqlar da onun öz adamı olduğunu deyib, əl çalırdılar, sonra isə etiraz etdilər. Bir adamın ki, uşağı yoxdur, o necə rəhbər olub, uşaqları, gələcəyi düşünə bilər? Əgər düşünsəydi, uşaq sahibi olardı. Uşaq təkcə nəsil deyil, həm də evdə adamdır. İndi evdə it saxlayırlar, nəinki uşaq.

***- Yəqin ki, şeir yazmaqdan da geri qalmırsız?***

- İlham gəldikcə, olduqca yazıram.

***- Bir neçə ay öncə saytların birində belə bir şeirinizlə qarşılaşmışdım:***

## “Məhkəmə çox haqsız qərar verdi”

***“Ey mənim göyçək yarım,***
***Ömrümüz sonbahardı***
***Mənim ağbirçək yarım.***
***Dəlisov gəncliyimi***
***Bu gün yada salmışam.***
***Sənin üçün bir dəstə***
***Qızılgüllər almışam”.***
Şeirin sonu isə belədir:
***“Sənə gül aldım ki,***
***mən Gül görüb üzün güllər...***
***Sən elə sözlər dedin,***
Əlimdə soldu güllər”. Maraqlıdır, şeirdəkini özünüz yaşamısızmı, yoxsa?..

- (gülümsəyir). Yaşamışam, əlbəttə. Mən xoşlayıram yoldaşıma gül almağı. Bir dəfə ona gül aldım, əvəzində dedi ki, “bu qaça-qaçda gülü neynirsən, nəyə lazımdır?”. Düzü, bu mənə toxundu, gülü həvəslə almışdım ki, qarıma verəcəm. Əslində o da gülü xoşlayır, indi bəlkə də ikimiz də yaşlanmışıq... Həm də yoldaşım bəzən özünə pul xərcləməyi qıymır, xəsislik edir.

***- Bəstəkarlar yeni şeirlərinizə də müraciət edir, maraqlanırlarmı?***

- Keçən il yazıçılar qrupu ilə Cocuq Mərcanlıya getmişdik. Həmin gün 8 şeir yazdım, halbuki bəzən heç bir yazı da yazmıram. Həmin şeirlərin 4-nə bəstəkar Ruhəngiz Qasımova mahnı yazdı. Cocuq Mərcanlıda sanki mənim üçün yeni mənzərə açılmışdı. Çox fərəhlənirdim ki, bayrağımız Lələ təpədə dalğalanır, Şuşa məscidinin eynisi orada tikilib. Bütün bunlar insana təsir edir, tərpədir.

***- Həm də ümid verir ki, işğal altındakı digər torpaqlarımız da geri qayıdacaq...***

- Ümid yox, həyat verir. Mən yaşda adam yaşamaq istəyir ki, torpaqlarımızın geri qayıtmasını, Şuşanı yenidən görüm. Dünyanı gəzmişəm, amma vaxtında nəsə unutdum ki, Kəlbəcərə də gedim. Onun nisgili ürəyimdə qalıb.

***- Bir müddət əvvəl şadlıq evlərində səslənən mahnılara görə müəlliflərə qonorar ödənilməsi ilə bağlı qərar çıxarıldı. Sizin də şeirlərinizə yazılmış saysız-hesabsız mahnılar mütəmadi olaraq səsləndirilir. Bəs bu qərardan sonra qonorar ala bilmisizmi?***

- Sovet dövründə şeirlərimiz çıxan qəzetlərdən, jurnallardan hətta çıxışlarımıza görə televiziya və radiodan da qonorar alıb, dolanırdıq. Lakin müstəqillik qazandıqdan sonra bu sistem pozuldu, bilmədim bunlara nə azar dəydi.

İndi rusca danışanımız artıb. Küçələrdə, ticarət və xidmət obyektlərində reklam lövhələrinin əksəriyyəti xarici dildə təqdim edilir. Halbuki dövlətin qərarı var ki, elan, reklamlar ilk növbədə Azərbaycan dilində olmalıdır. Bunu nə qədər deyirsən, yenə də fikir verən yoxdur. Axı nə qədər olar, bu sənin öz ana dilindir. Belə çıxır ki, sən öz ana dilinə hörmət etmirsən. Onda necə deyə bilərsən ki, mən anamı sevirəm? İndi yalançı patriotlar çıxıb ortalığa, harada dik yer görür, ayağını qoyub çıxır tribunaya, qışqırır “Vətən!”. Amma vətən üçün iki iş görməyib.

***- Elə bu məsələdən söz düşmüşkən, son vaxtlar ekspertlər də həyəcan siqnalı verib bildirirlər ki, uşaqlarını rus bölməsində təhsil almasına çalışan valideynlərin sayı durmadan artmaqdadır, hansı ki, əksəriyyəti rus dilində heç bir cümlə qura bilmir. Əsasları da budur ki, rus bölümündə təhsil verən müəllimlər daha intellektual, mədəni, bilgilidirlər.***

- Sovet dövründə elə düşünürdük ki, yaxşı dərzi ancaq erməni ola və yaxud evi yaxşı erməni ustası tikə, başı yaxşı erməni bərbəri qırxa bilər, yəni, başımızı da ermənIyə etibar edirdik. Beləliklə, pul ermənilərdə olurdu. Həmin vaxt Azərbaycanda ən varlı adamlar, ən yaxşı evlərdə yaşayanlar ermənilər idi. Onlar bizim pulumuzla varlı olmuşdular. Nazirlərimizin köməkçilərindən biri mütləq erməni idi və ya heç nə olmasa da, katibəsi erməni olurdu. Əgər müstəqillik dövründən sonra torpaqlar özəlləşdirilib satılanda ermənilər yenə bizimlə birgə olsaydı, həmin torpaqların hamısını alardılar və biz lüt qalardıq. Qarabağ məsələsində onlar qudurdular, Allah onların iç üzünü göstərdi, güclə torpaqlarımızı işğal etdilər. Amma biz o torpaqlarımızı geri alacağıq. Əgər o torpaqları hiyləgərcəsinə bizdən alsaydılar, biz bir də ora qayıda bilməzdik.

Müstəqillikdən sonra bu gözəl binaları kim tikdi? Əlbəttə ki, özümüzünkülər. Hətta yaxşı tikməyə çalışırlar ki, sabah orada onun uşağı, qohumu yaşaya bilər, bina uçmasın. Və yaxud indi çox gözəl dərzilərimiz, bərbərlərimiz var, demək ki, özümüzdən də yaxşı sənətkarlar ola bilər. Beləliklə, indi də düşünürük ki, bizdən heç də yaxşı müəllim çıxa bilməz. Niyə olmasın? Sən əgər yaxşı uşaq yetişdirsən, yaxşı müəllimin, professorun, akademikin olacaq, yetişəcək.

***- Bir az öncə özünüz də qeyd etdiz ki, sovet dövründə şair və yazıçılar yazdıqlarından dolana, kifayət qədər qazanc əldə edə bilirdi. İndi bunu demək çətindir. Bəs nə etməli?***

- Müəllif hüquqlarına görə ildə bir dəfə gətirib 200 manat pul verirlər. Bu axı heç nədir. Hamı bilir ki, hər zaman toylarda mənim şeirlərimə yazılmış mahnılar səsləndirilir. Bir cild kitabım ancaq mahnılar yazılmış şeirlərdir. Hansı ki, həmin kitab 400 səhifədən ibarətdir, deməli 400-dən çox nəğməli şeirim var. Əgər mən başqa ölkədə yaşasaydım, əlbəttə ki, milyoner olardım. Amma onu da qeyd edim ki, dövlət həmişə mənim qayğıma qalıb, zəhmətimə qiymət verib, xəstələnəndə iki dəfə ölümdən qurtarıb, əməliyyatlara göndərib.

***- İndi bəzi yazıçılarımız açıq-saçıq ədəbiyyata daha çox üstünlük verməyə çalışır. Buna görə tənqid olunanda isə müasirliyi əsas gətirirlər.***

- Onlar başqalarını təqlid etməyə çalışırlar, buna görə onlarda alınmır. Hər bir insanın öz barmaq izi olur, başqasının barmaq izi ilə getməyə çalışanda nəticə olmur.

***- Bəs son zamanlar sizi təəccübləndirə bilən gənc yazıçı və ya şair olubmu?***

- Onlar həmişə məni təəccübləndirir, ta ki, təsir altına düşüb, kimisə yamsılayana qədər.

***- İndi verəcəyim sual bilirəm ki, sizi narahat edəcək, lakin bu sual ağlımda qaldığı üçün vermək istərdim. Ötən il yeganə oğlunuzu döyərək öldürməkdə günahlandırılan şəxslərdən biri məhkəmənin qərarı ilə 5 il, digər iki nəfər isə 2 il 6 ay, 2 il həbs cəzası aldı. Bu qərarla razılaşa bildinizmi?***

- Mən oğlumu itirmişəm, bir oğlum var idi, onu da öldürdülər. İndi etiraz etməklə nəyi dəyişə bilərəm, oğlumu geri qaytara biləcəm? Prokurorluq oğlumu öldürən şəxsə 19 il həbs cəzası istəsə də, hakim 5 il iş kəsdi. Belə çıxır ki, ya prokuror çox savadsızdır, ya da hakim. Amma 19 və 5 rəqəminin arasında çox böyük fərq var və onu göstərir ki, məhkəmə çox haqsız qərar verib, bu haqsızlıqdır...

**❑ Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir**

# Qaçqın və məcburi köçkünlərimizin dəqiq sayı nə qədərdir?

## Sosioloq: "Onların sayını müəyyənləşdirmək, dəqiq söyləmək lazımdır"

**Azərbaycanda uzun müddətdir ki, qaçqın və məcburi köçkünlərin sayı 1 milyon nəfər kimi qeyd edilir. Müxtəlif məmurlar, ziyalılar öz çıxışları zamanı bildirirlər ki, ermənilərin torpaqlarımızı işğal etməsi nəticəsində 1 milyon nəfər soydaşımız yurdlarından didərgin düşüb. İllər keçir, bəs nə üçün qaçqın və məcburi köçkünlərimizin say tərkibində dəyişiklik qeyd edilmir?**

Təbii ki, bu illər ərazində qaçqın və məcburi köçkün ailələrimizdə xeyir işlər olub, yeni dünyaya gələn körpələr var. Hansı ki, qaçqın və məcburi köçkün ailəsində doğulanlar da bu statusu daşıyırlar. Deməli, onların statistikasında artım var.

Bu gün məcburi köçkünlərlə bağlı dövlət tərəfindən bir sıra layihələr həyata keçirilir. Ən əsası da onlar yavaş-yavaş evlə təmin olunurlar. Lakin buna baxmayaraq, qaçqın və məcburi köçkünlərimizin bir qismi hələ də şəraitsiz yataqxanalarda, müxtəlif idarələrinin nəmişlik içərisində olan zirzəmilərində yaşamağa məcburdurlar. İllərdir ki, onlar ermənilərin torpaqlarımızı işğal etməsinin nəticəsi olaraq əzab çəkir, çətin vəziyyətdə yaşayırlar. Bu baxımdan ekspertlər bildirirlər ki, məcburi köçkünlərimizin sayının dəqiqləşdirilməsi, dünya ictimaiyyətinə, beynəlxalq qurumlara da bir mesaj olar. Müxtəlif beynəlxalq təşkilatlar da bilərlər ki, Azərbaycanda erməni işğalının əziyyətini təkcə orta və yaşlı nəsil deyil, bugünkü gənclər də çəkirlər...



Hələ 2013-cü ildə Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin o zamankı sədri Əli Həsənov jurnalistlərə açıqlamasında bildirmişdi ki, Azərbaycanın 1 milyon 200 min qaçqın və məcburi köçkünü var. O qeyd etmişdi ki, 1 milyon qaçqın və köçkün sayı 1992- 93-cü illərə aid idi və keçən 20 il ərzində ölkə əhalisinin təbii artımının 100:1 faizə nisbətinə əsasən, qaçqın və köçkünlərin də sayı artıb: "İlə 10 min artmaqla bu rəqəm 1 milyon 200 minə çatıb. 9 milyondan çox əhalinin 1 milyon 200 mini qaçqın və məcburi köçkündür. Yeni dünyada hər 135 nəfərdən biri qaçqın olduğu halda, Azərbaycanda hər 8 nəfərdən biri qaçqındır. Bizim problem çox ağırdır".

O, həmçinin qeyd etmişdi ki, son 20 ildə isə məcburi köçkünlərə 5,4 milyard dollar xərclənib.

Əli Həsənovun dediyi hesabla bu gün Azərbaycanda 1 milyon 250 mindən çox qaçqın və məcburi köçkün var.

"Yeni Müsavat"a danışan sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, Qarabağ hər birimizin dərdi olduğu üçün əslində bu işğaldan əziyyət çəkənlərin sayı bir neçə milyondur: "Bu məsələdə çalışmaq lazımdır ki, statistikada dəqiqlik olsun. Rəqəmi hansısa bir yanaşmaya qurban vermək doğru deyil. Çünki bu bir kontingentdir və əhalimizin də mühüm bir təbəqəsidir. 1990-cı ilin əvvəllərində qaçqın və məcburi köçkün kimi yurd-yuvalarından didərgin düşənlərin bu gün artıq nəvələri, nəticələri var. Onların da hər biri bu hadisələrin əziyyətini çəkirlər. Mənim tələbələrim arasında həmin qaçqınların nəvələri var. Görürəm ki, bu gənclərin də psixologiyasında, düşüncəsində elə məqamlar var ki, onları da elə qaçqın saymaq olar. Onlar da həmin ağrını müxtəlif formalarda və ata-analarından, nənə-babalarından az olmayacaq qədər hiss edirlər. Təbii ki, qaçqın və məcburi köçkünlərin bir qisminin sosial-iqtisadi vəziyyəti hazırda fərqlidir. Lakin bütün hallarda bu adamlar yurd-yuvalarından didərgin düşüblər. Onların sayını müəyyənləşdirmək, dəqiq söyləmək lazımdır. Onların sayını müəyyənləşdirmək üçün demoqrafiq göstəricilərə fikir vermək mümkündür. Eləcə də artım indeksini hesablamaq lazımdır. Bütün bu işlərin fonunda qaçqın və məcburi köçkünlərin sayını müəyyən etmək o qədər də çətin deyil. Doğulan uşaqlarla, ölənlərin sayını hesablamaq gərəkdir. Təbii ki, ölənlərin sayı, doğulanların sayından çox deyil. Buna görə də artım indeksini çıxarmaq vacibdir. Beynəlxalq ictimaiyyətə də demək olar ki, artıq Azərbaycanda qaçqın və məcburi köçkünlərin sayı bu qədərdir. Ölkə ərazisində də bu, hər kəsə aydın olar. Nəticədə həm də Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin də işi aydın olar ki, onlar hansı istiqamətlərdə iş görməlidir. Eyni zamanda, həmin kontingentlə bağlı biz artıq sosial siyasətimizdə də müəyyən dəyişiklik etməliyik. Çünki artıq gənclər, uşaqlar var. Onlarla bağlı sosial siyasətimizdə yeniliklər etməyimiz vacibdir",

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Martdan paytaxtın bəzi mağazalarında torbalar pullu olacaq

## İri mağazalarda sellofan torbalar nə zaman yığışdırılır?

**Azərbaycanda bir müddətdir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi plastik qablar və polietilen torbalardan tədricən imtina edilməsi istiqamətində işlər aparır. Bütün bu işlərin fonunda mağazalarda müştərilərə pulsuz verilən sellofan torbaların da bu ildən etibarən pullu olacağı söylənilir.**

Səbəb kimi göstərilir ki, əgər həmin sellofan torbalar pullu olarsa, müştərilər ondan az istifadə edərlər. Nəticədə ekoloji mühit çirklənmədən xilas olar. İnsanlara həsir və ya sellofan olmayan digər torbalardan istifadə etmək tövsiyə edilir. Dünyada da bu istiqamət üzrə işlər aparılır. Məsələn, qardaş Türkiyədə bu ildən etibarən bir çox mağazalarda sellofan torbalar pulludur.



Məlumatlarda qeyd olunur ki, sellofanların tərkibində xərçəng əmələ gətirən və hüceyrələri dağıdan maddələr var. Bu torbaların istifadəsi sağlamlıq üçün təhlükə olmaqla bərabər, ətraf mühitə də ziyan vurur, ekologiyanı zədələyir. Bu tullantılar yandırılarkən havaya ayrılan zəhərli qazlar insanların sağlamlığına, heyvanların isə məhvinə gətirib çıxarır. Bütün bu kimi səbəblərə görə, dünyada da bu təhlükənin qarşısını almaq üçün müxtəlif tədbirlər görülür.

Son günlər sosial şəbəkələrdə məlumatlar yayılıb ki, Azərbaycanda artıq bəzi mağazalarda bu kimi torbalar müştərilərə pulla satılır. Bildirilir ki, torbaların qiyməti 5-10 qəpikdir. "Yeni Müsavat"ın əməkdaşı olaraq məlumatlarda apardığımız reyd zamanı belə bir halın şahidi olmadıq. Satıcılarla söhbətimiz zamanı onlar bildirdilər ki, gələcəkdə bu torbaların müştərilərə pulla verilməcəyi planlaşdırılır. Lakin qiymətin nə qədər olacağı hələ ki, məlum deyil. Eyni zamanda, bəzi mağazaların administratorları bildirdilər ki, martdan sellofan torbalar, kağız materialından olan torbalarla əvəzlənəcək. Həmin torbaların qiymətləri isə hələ ki, müəyyənləşməyib.

Alıcılarla söhbətimiz zamanı onlar da bildirdilər ki, əgər torbaların qiyməti 5-10 qəpik olacaqsa bu, çox bahadır. Çünki mağazadan alış-veriş edənlər hər dəfə bir neçə torbadan istifadə etməli olur ki, üst-üstə gələndə bu da müəyyən qədər vəsaitdir. Alıcılar söylədilər ki, onsuz da mağazalarda satılan məhsulların qiymətləri hər gün yüksəlir. Sellofanlar da pullu olarsa, vəziyyət çətin olacaq...

Məsələ ilə bağlı "Yeni Müsavat"a Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilib ki, nazirlik tərəfindən bir müddətdir ki, sellofan torbaların marketlərdə pullu satışı ilə bağlı maarifləndirmə tətbiqləri aparılır. Bildirilib ki, bu tədbirlərə mağazaların bir qismi qoşulmayıb. Lakin bəzi mağazalar var ki, onlar artıq sellofan torbaları müştərilərə pulla təklif edirlər. Nazirlik bu cür addımları müsbət hesab edir. Bildirilir ki, çağırışa müsbət reaksiya verilməsi sevindirici haldır. Çünki bu üsulla ətraf mühit qorunacaq.

Onu da qeyd edək ki, ETSN təkcə sellofan torbaların pullu olması təklifini deyil, həmçinin plastik qablaşdırma materiallarından istifadənin məhdudlaşdırılması ilə bağlı da təklif irəli sürüb. Nazirlikdən bildirilib ki, onlar bu təklifləri hazırlayıb, aidiyyəti üzrə təqdim edirlər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova KİV-ə müsahibələrində bildirib ki, əvvəllər bazarlarda yalnız kağız torbalardan istifadə olunurdu və alıcıların da ipdən toxunan, parçadan hazırlanan yaxud da həsir tipli zənbillərdən istifadə edirdilər. Mağazalarda da ərzaq məhsulu alanda onu kağıza bükük alıcıya verirdilər. Sonradan onları sellofan paketlər əvəz etdi. Bu gün mağazalarda təklif olunan məhsulların 99 faizi "pinqvin" adlandırılan sellofan paketlərdə qablaşdırılır ki, bu da təkcə insan sağlamlığına deyil, ətraf mühitə, flora və faunaya da təhlükə yaradır. Bu torbaların təbiətə vurduğu zərər hesaba gəlməyəcək qədər çoxdur.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



## Qubada dəhşətli olay: ata maşınla 5 yaşlı oğlunun üstündən keçdi

**Qubada dəhşətli hadisə baş verib. Sputnik Azərbaycan-ın məlumatına görə, rayonun Barlı kəndində 2014-cü il təvəllüdlü Vəliyev Rəvan Bəhərçin oğlu atasının sürdüyü "Qazel"markalı avtomobilin altında qalaraq dünyasını dəyişib.**

Belə ki, uşağın atası Bəhərçin Vəliyev "Qazel"markalı maşını həyətdən çıxararkən 5 yaşlı oğlunun orada oynadığını görməyib və onun üstündən keçib. Uşaq xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Hadisə yerinə Quba Rayon Prokurorluğunun əməkdaşları gəlib. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 9 (7179) 14 yanvar 2019

# Yay tətilini qışda düşünənlərin qazancı

## Azərbaycanda erkən rezervasiya bazarı niyə işlək deyil?

**Yeni ilin ilk günlərini yaşayırıq. Amma sosial şəbəkələrdə, saytlarda qarşımıza tez-tez yay tətili üçün erkən rezervasiya elanları, reklamları çıxır. Qışın soyuğunda yay tətilini düşünənlər bu fürsətlər barədə düşünürlər. Son illər Azərbaycanda da erkən rezervasiya, onun şərtləri ilə bağlı reklamların sayı çoxalıb.**

Nədir erkən rezervasiya? Yayda gedəcəyiniz tətilin pulunu qışda vermək. İşin sirri isə odur ki, otellər öz otaqlarını əvvəlcədən topdan şəkildə tur operatorlara mövsüm qiymətindən çox daha ucuz qiymətə satır. Çünki onlar üçün böyük kütləyə çıxmaq daha çətindir və rəqabət böyükdür. Tur operatorlar isə hotellərdən aldıqları otaqları uyğun qiymətlərlə müştərilərinə təklif edir və satmaq üçün yarışırlar. Sizə də bu fürsətlərdən faydalanmaq qalır.

### Erkən rezervasiyanın üstünlükləri...

Yaxşı, bəs həqiqətən də endirim olurmu? Əlbəttə ki, 50%-ə qədər erkən rezervasiya endirimlərindən faydalanmaq mümkündür. Amma nəzərə alaq ki, bu, hər hoteldə, hər zaman olmur. Bəs nədir erkən rezervasiyanın üstünlükləri?

Birincisi və təbii ki, ən önəmli məqam hotellə bağlıdır. Yaxşı bir oteldə qalmaq, keyfiyyətli yuxu və mərkəzə yaxın olma kimi kriteriyalar insanın səyahətinə təsir edir. Yuxarıda da qeyd etdiyimiz kimi, hotellərin topdan satış etməsi və rəqabət şərtləri erkən rezervasiya zamanı qiymətləri çox aşağı salır. Siz də büdcənizə qənaət edəcəyinizdən qalacağınız hoteli istəyinizə uyğun şəkildə və rezervasiyanızı aylar öncədən seçə bilirsiniz.

Digər ikinci məqam isə ucuz təyyarə biletidir. Aylar əvvəldən dəqiqləşdirilmiş səyahət planınıza uyğun təyyarə bileti tapmaq da asan olacaq. Havayolu şirkətləri uçuş biletlərini oturacaqları blok-blok ayıraraq satışa çıxarırlar. Hər blokun ayrı qiyməti olur və bir blok dolduqda digəri satışa çıxarılır. Buna görə də, uçuş tarixinə az qalmış bilet qiymətləri yüksəlir. Uçuş tarixiniz dəqiqləşdikdən sonra axtarış edərək, fərqli alternativlərə göz gəzdirə və ən ucuz təyyarə biletini ala bilərsiniz. Beləliklə səyahətinizin ən vacib büdcə maddələrindən biri də problemsiz həll ola bilər.

Tətilinizi əvvəlcədən planlamadıqda həmin tarixə az qalıbsa, istədiyiniz oteldə, istədiyiniz otağı tapmaq çətin olacaq. Erkən rezervasiya sistemində hər şeyin yaxşısını seçmək və sonradan sürpriz yaşamamaq rezervasiya edənin faydalana biləcəyi imkanlardan biridir. Təxmini təsəvvür yaransın deyə, hər hansı bir kinoteatra getdiyinizdə salonda bütün oturacaqların boş olduğunu və bütün seçimlərin sizin üçün olduğunu düşünün...

Yeri gəlmişkən, səyahət zamanınız dəqiqləşdiyindən həmin tarixlərdə müəyyən olunmuş konsert, tədbir, ekskursiyalar və digər fəaliyyətlər üçün rezervasiya etdirmək, tematik park, muzey və nəqliyyat kimi digər detalları da aylar əvvəldən satın alaraq həm rahat planlama etmək, həm də əlavə endirim qazanmaq mümkündür.

Planlarınızda hər hansı bir dəyişiklik olması halında ödədiyiniz məbləğin tam və ya müəyyən qismini geri qaytarmağınız üçün də erkən rezervasiya şərtləri çox uyğun ola bilər. Bəzi hallarda bu dəyişiklik və ləğv etmə imkanları tətilinizin başlamasına 72 saat qalmışa qədər belə verilə bilər.

### Tarixi və adı dəyişəndə... cərimə ödəməlisən...

"Yeni Müsavat" xatırladır ki, bu günlərdə Türkiyənin Antalya, Bodrum kimi istirahət bölgələrində 700-800 dollara 5 ulduzlu oteldə 14 günlük istirahət paketi də almaq mümkündür. Halbuki, mövsüm vaxtı bu qiymətə ancaq 7 gecəlik paket almaq olur.

Erkən rezervasiyanın mənfi cəhəti isə tarixlər və ya səfər edəcək şəxsin adını dəyişməyin cəriməli olmasıdır. Mütəxəssis bildirir ki, bu cərimələr ümumi məbləğin 70, 80, hətta 100 %-i həcmində ola bilir.

Hazırda bir çox Antalya otellərinə 249 dollardan başlayan qiymətlərlə bir həftəlik turlar elan edilib.

Ümumiyyətlə, ilk dönəmlər qiymətlərin ən aşağı, ödəmə variantlarının ən sərfəli olduğu dönəmlər olaraq diqqət çəkməkdədir. Bundan başqa, pulsuz transfer, endirimli təyyarə bileti, 100 faiz geri qaytarma kimi bir çox əlavə fürsətlərin də bu dönəmlərdə təqdim edildiyini unutmamalıyıq. Mövsüm zamanı hotellərin dolu olmasından dolayı yer tapmaq problemi yaşamamaq, istərsə qiymət artımından təsirlənməmək üçün noyabr, dekabr və yanvar aylarında rezervasiyaları etdirmək tövsiyə olunur.

### Erkən rezervasiya - 7 ay davam edir, amma necə?

Bu mövzuda ortaya çıxan suallardan biri də erkən rezervasiyanın nə qədər davam etməsidir. Ən sərfəli qiymətləri, ödəniş üstünlüklərini, istədiyiniz hoteldə və dönəmdə yer tapa bilmə imkanı kimi çox önəmli şərtlər təqdim edən kampaniya 7 ay davam edir və hər dönəmdə də insanlara fərqli imkan, fürsətlər təqdim edir.

Kampaniya çərçivəsində erkən rezervasiya hotelləri üçün müxtəlif endirim faizləri təqdim edilir. Amma heç də hər yüksək endirim ucuz qiymət mənasına gəlməməkdədir. Bu durumda endirimlərə yox, qiymətlərə diqqət edilməlidir və sərfəli olub-olmamasını qiymətlər baxımından təhlil etmək lazımdır. Əks halda yüksək endirim ilə satın aldığınız tətil üçün yüksək qiymət ödəmiş ola bilərsiniz. Çünki son nəticədə ödəmələri faiz olaraq yox, manat olaraq etməkdəsiniz.



Ən düzgün erkən rezervasiya firmasını tapa bilmək üçün şirkətlərin neçə ildir fəaliyyət göstərdiklərini təhlil etmək və internetdə bu cür xidmətlərdən yararlanan insanların şərhlərini və yaşadıqlarını araşdıra bilərsiniz. Bundan başqa, firmaların təqdim etdikləri kampaniyalar və digər endirimləri bir-biri ilə qarşılaşdıraraq ən doğru və sərfəli kampaniya variantlarını da rahatlıqla əldə edə bilərsiniz.

Tətilə çıxılacaq zamanın tam olaraq dəqiqləşdirilməsi erkən rezervasiya baxımdan olduqca böyük əhəmiyyət daşımaqdadır. İşləyən insanlar müdirləri ilə danışaraq illik icazələrini ala biləcəkləri zamanı öncədən müəyyənləşdirərlərsə, erkən rezervasiyalarını da buna uyğun olaraq həyata keçirə bilərlər. Zaman planlaşdırılması doğru həyata keçirilmədiyi təqdirdə erkən rezervasiya həyata keçirilsə belə, tətildən tez qayıtmaq məcburiyyətində qala bilərsiniz.

Bir çox səyahət şirkəti müştərilərinin daha sonra zərərçəkən olmaması üçün erkən rezervasiyalarda əlavə sığorta xidməti də təqdim edir. Xüsusən tətilə çıxılması planlaşdırılan zaman aralığında hər hansı bir dəyişiklik olma ehtimalı varsa, erkən rezervasiya sığortası həyata keçirilərək, bəlli bir müddət qalana qədər ləğv etdirə bilmə, ya da fərqli bir tarixə təxirə salma şansı yaradılır.

Azərbaycanın turizm bazarı ilə müqayisədə Türkiyədə erkən rezervasiya sistemi xeyli populyardır. Məsələn, Türkiyəyə gələn yerli və xarici turistlərin sayı 2018-ci ilin ilk 9 ayında 2017-ci ilin eyni dövrünə görə 18,5% artımla 36 milyona çatıb. Xüsusilə, Avropadan gələn turist sayında artım davam edir. Bu şəkildə davam edərsə, bu ilin sonunda ölkəyə gələn turist sayı 45 milyona çatacaq.

İstirahətin planlaşdırılmasında erkən rezervasiya həm sektor, həm də istirahət edənlər üçün böyük əhəmiyyət kəsb edir.

Çünki erkən sifarişin ilk dövründə endirim faizləri 30-50 % arasındadır. Əvvəlki illərdən fərqli olaraq, bu il erkən rezervasiya kampaniyasında tələbatların 40% ətrafında artımı gözlənilir. 2018-də xüsusilə, mədəniyyət turları seçilib. Bu ardıcıllığın 2019-cu ildə də davam etməsi gözlənilir.

### 1438 manatlıq tur paket - belə sərfəli şərt olar?

Amma Azərbaycanda erkən rezervasiya təklif edən bəzi turizm şirkətlərinin qiymətləri o qədər də ürəkaçan deyil. Məsələn, "VictoryTur" adlı şirkətin Marmarisdə yay tətili qiymətlərinə nəzər salaq.

**1.** KAYA MARIS HOTEL 4* - 846 USD
**2.** USDPALMEA HOTEL 4* - 849USD
**3.** HAWAII HOTEL 4*- 866 USD
**4.** SESIN HOTEL 4*- 890 USD
**5.** SUPREME HOTEL 4*- 954 USD
**6.** LETOILE BEACH HOTEL 4*- 1046 USD
**7.** LUNA BEACH DELUXE HOTEL 5*- 1158 USD
**8.** JIVA BEACH RESORT 5*- 1169 USD
**9.** ELITE WORLD MARMARIS HOTEL 5*- 1277 USD
**10.** GRAND YAZICI CLUB MARMARIS PALACE 5*- 1544 USD
**11.** D RESORT GOCHECK 5* - 1628 USD

- AVİAUÇUŞ ( AZAL)
- mehmanxanada gecələmə
- "hər şey daxildir" sistemi üzrə qidalanma
- qrup transferi
- sığorta

Qiymətlərin dollarla olması və hesablama göstərir ki, ən minimal qiymət 1438 manatdır. Yəni, bir nəfərin 7 gün, 8 gecə istirahət paketinin qiyməti 1438 manat olduğu erkən rezervasiya şərtləri həqiqətən də hansı mənada sərfəlidir, çox maraqlıdır. Xüsusən nəzərə alanda ki, dolların qiyməti qalxarsa, bu qiymətlər də astronomik həddə çata bilər, bunu bir daha düşünməkdə fayda var.

Bu arada 2019 Antalya turu üçün erkən Rezervasiya başlayıb - 7 gecə / 8 gün cəmi 358 USD-dan başlayan qiymətlərlə.

Turun tarixi:
18.05.2019 - 25.05.2019
7 gecə 8 gün

Amma bu, üçulduzlu hotellər üçün keçərli olan qiymətlərdir. Hotel ulduzlarının sayı artdıqca bu qiymət 500-600 dollara qədər yüksəlir.

### Mamed Əliyev: "Ruslara hotel qiymətləri daha ucuz təklif olunur, nəinki bizə... "

"FlyTravel" turizm şirkətinin direktoru Mamed Əliyev "Yeni Müsavat"a açıqlamasında Azərbaycanda erkən rezervasiya şərtləri və bunun müsbət-mənfi tərəfləri barədə danışdı. Müsahibimiz bildirdi ki, bir çox turistlər sadəcə bilet almaqla kifayətlənir. Amma indiki məqamda ən sərfəlisi tur paket almaqdır. M.Əliyevə görə, ümumiyyətlə, Azərbaycanda erkən rezervasiya 30-40 faizlik endirimi özündə əks etdirir: "Hesab edin ki, 3 min dollarlıq paket erkən rezervasiya zamanı 500 dollar daha ucuz olur. Bəzi hallarda isə müştəri bileti indidən alır - 500 manat - gediş-dönüş. Amma hotel ucuz qiymətə verdiyi üçün onu yayda da alır. İndi müştərilərimizin çoxu narazıdır. Deyirlər ki, bu il qiymətlər çox bahadır. Məsələn, bir nəfərin bir həftəlik Antalya tətili 700-800 manata başa gəlir. Bu il tur paketlərin qiyməti çox baha qoyulub. Ümumiyyətlə, deməliyəm ki, ruslarla müqayisədə otel qiymətləri bizlər üçün hər zaman baha olur. Bizdə də tur paketin əsas hissəsini təyyarə biletləri təşkil etdiyi üçün mənzərə belə yaranır".

### Əgər dolların kursu artırılsa.... Erkən rezervasiya nağıl olacaq

Müsahibimizdən qiymətlərin dollarla təqdim edilməsinin həm riskli, həm də baha olması barədə soruşduq. Dedi ki, hotel qiymətləri turizm agentliklərinə əsasən dollarla təqdim edildiyi üçün onlar da dollarla təqdim edirlər. Amma bir neçə il bundan öncə, yanvar-fevral aylarında Azərbaycanda dollar qiymətinin qəfil artması erkən rezervasiya bazarını iflic duruma salmışdı: "Bir neçə il öncə belə bir hal olmuşdu. Onda da insanlar aldıqları tur paketi geri qaytarmışdılar. Çünki bu gün dolların kursu 1.71 manatdır. Amma sabah dollar qalxsa, yenə də tələb ediləcək ki, müştəri dolların kursu olan pulu ödəsin".

M.Əliyev bütün hallarda erkən rezervasiyanın üstünlüklərindən danışdı. Dedi ki, avqust ayı üçün tur paket alan vətəndaş onun məbləğinin cəmi 30 faizini ilkin ödəniş edib, qalanını hissə-hissə ödəyir: "Ya da qalan 70 faizini tətilə bir ay qalmış ödəyir. Bu da bir növ tətilin krediti sayıla bilər".

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 9 (7179) 14 yanvar 2019



## Bara vertolyotla gəldi, cəzalandırıldı

İtaliyanın Margone şəhərindəki bar ziyarətçilərindən biri ora vertolyotla gəlib. Bu haqda lenta.ru saytı xəbər verib. O, vertolyotla şəhər meydanına düşüb, bara baş çəkib və sonra verdiyi narahatlıq üçün üzr istəyərək geri qayıdıb. Hadisə 26 dekabr 2018 tarixində baş verib. Daha sonra sözügedən şəxs icazəsiz və hava təhlükəsizliyi standartlarını pozduğu üçün, insanların məskunlaşdığı bir əraziyə icazəsiz uçduğu üçün cinayət məsuliyyətinə cəlb edilib.

Daha sonradan müəyyən edilib ki, helikopter uçuş pilot məktəbinə məxsus olub və onun pilotu təlimatçı kimi işləyir. Adam Margona dostları ilə qəhvə içmək və qəlyanaltı etmək üçün ora gəldiyini deyib. RİA-Novosti xəbər verir ki, pilot yerli vadiləri çəkmək üçün uçurmuş. Onun sözlərinə görə, elektron poçtla göndərməyə çalışdıqları uçuş üçün ərizə nədənsə poçt qutusunda qalıb.

2017-ci ildə Avstraliyada bir adamın vertolyotla McDonald-a uçduğu bildirilmişdi. Restoranın yaxınlığına vertolyotunu endirən adam daha sonra öz sifariş etdiyi yeməkləri alıb və onu kabinəsinə aparıb. Getmədən öncə o, vertolyotun və restoranın fonunda şəkil çəkdirib.

# Uşaqlarının xətrinə "bir adamlıq" arıqladı

Klar Alsop adlı qadın uşaqlarının xətrinə 70 kilo arıqlayıb. O, bununla həyatında yeni bir səhifə açıb. İngiltərənin Rotherham şəhərində yaşayan 31 yaşlı qadın 2011-ci ilin yanvar ayında dietaya başlayıb. Bir il ərzində isə 134 kilodan 70-ə enməyi bacardı. Qadını belə bir addım atmağa vadar edən səbəb isə iki uşağı olub. Kların dediyinə görə, 40 yaşına çatanda bundan daha ağır olacağını düşünüb: "Dedim, bəs onda mən onlarla ortaq heç nə edə bilməyəcəm axı? İndi uşaqlarımı uzaqdan seyr etmək əvəzinə onlarla hər cür oyunlar oynayır, gəzintilərə gedirəm".



Bu qadının arıqlama hekayəsi dünyadakı ən "prinsipal və fədakar ana" dietası olaraq tarixə düşüb.

# Suya düşən tısbağa illər sonra sahibinə geri qayıtdı

Estoniyanın cənubunda yerləşən Vilyandi şəhər sakininə 3 il əvvəl yanından qaçan tısbağanı geri qaytarıblar. Bu haqda yerli nəşr "Sakala" xəbər verib.

Reymo Ryaets 2015-ci ilin 3 iyulunda Fernando adlı tısbağasına Estoniya yayını göstərmək üçün onu göl qırağına aparıb. Gəzinti zamanı Fernando qumda çirklənib və sahibi onu göldə çimizdirmək istəyib. Amma suya düşən tısbağa sahibinin əlindən çıxaraq göldə üzməyə başlayıb. Eston kişi nəticəsiz olaraq üç il boyunca tısbağasını axtarıb. "Yaz vaxtı mən göl qırağına onu axtarmağa gəlirdim. Çünki bilirdim ki, günəşli havalarda tısbağalar gün altında qızınmağı sevirlər" bunu da eston deyib.

Bu ilin yayında isə yerli balıqçılardan biri Fernandonu itdiyi yerdən 300 metr aralıda tapıb. İnternet vasitəsilə heyvanın sahibini tapıb və ona qaytarıb. Sahibinin sözlərinə görə, 3 il ərzində Fernando böyüyüb və hazırda tam sağlamdır. Sahibi eyni zamanda deyir ki, ondan tez-tez aradan bu qədər müddət keçməsinə baxmayaraq, Fernandonu necə tanıya bildiyini soruşurlar. Onun sözlərinə görə, heyvanın xüsusi naxışı və bəzəyi var. Bundan başqa, Ryates onu davranışlarından tanıyıb: "Fernando çox sakitdir. Üç illik azadlıq onu heç dəyişməyib".





## Vertolyot kişinin başını qopardı

Amerikanın Florida ştatındakı Bruksvil şəhərində vertolyot vinti 62 yaşlı kişinin başını qoparıb. İnsident Bruksvil yaxınlığında baş verib. Dünyasını dəyişən və onun ortağı vertolyotu özüyeriyən trolley ilə açmağa çalışıb. Birdən aparat atlayıb və sonra aşağı düşüb. Nəticədə motor bıçağı kişinin başına dəyib və o, anındaca ölüb. Yerli polis ofisi istintaqa başlayıb. "Şübhəsiz ki, belə bir ölüm qeyri-adi bir şeydir ... və biz bütün cavabları bildiyimizə əmin olmaq istəyirik" bunu şerif El Ninhaus deyib.

2018-ci ildə bir vertolyotun Kolumbiya dağlarında vertolyot qəzası yerində çalışan bir mühəndisin üstünə düşdüyü bildirildi. İlk təyyarənin düşməsinin səbəbi mexaniki problemlər idi.

## Qoroskop




**QOÇ** - Aldığınız yeni və gözlənilməz təkliflərdən imtina etməyin. Çünki ulduzlar bu istiqamətdə böyük perspektivdən xəbər verir. Daşınmaz əmlak alqı-satqısında isə qətiyyən iştirak etməyin.

**BUĞA** - Qarşınızda elə bir gün durub ki, ən azı ötən iki ayda dondurulan əksər planlarınızı reallaşdırmaq imkanı qazanacaqsınız. Təbii ki, bu istiqamətdə aktivliyinizi də artırmalı, tərəfdarlara güvənməlisiniz.

**ƏKİZLƏR** - Yaxşı olar ki, dostlarınızı imtahana çəkəsiniz. Çünki indi onların əksəriyyəti sizdən sui-istifadə edir. Aldanmamaq üçün bunu etməlisiniz. Əsəblərinizi qorumaq istəyirsinizsə, təbiət qoynunda gəzinməyə dəyər.

**XƏRÇƏNG** - Ulduzlar bildirir ki, bu gün yeni əlaqələr və maddi dirçəliş sizi məmnun edəcək. Səfərə çıxdığınız təqdirdə isə hündür yerlərə qalxmayın. Bu tarixdə qidanıza da fikir verin. Sevgi münasibətlərini isə arxa plana keçirməyin.

**ŞİR** - Əksər Zodiak işarələrində olduğu kimi bu gün sizin üçün də əhəmiyyətli gündür. Yeni əlaqələr, iş təklifləri, büdcədə qismən də olsa artım, sizi sevindirəcək. Üstəlik, səhhətiniz də normallaşacaq.

**QIZ** - Əgər zərdüştilərin dediyi "xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" prinsipinə sadiq qalsanız, saat 12-dən etibarən hər mənada uğurlarınız artacaq. Yeni iş təkliflərinə başdansovdu yanaşmayın.

**TƏRƏZİ** - Bu şaxtalı təqvimdə əsas enerjinizi qarşınızda duran vəzifələrin icrasına yönəltməlisiniz. Hər hansı lovğalıq və ya məsuliyyətsizlik sizi gözdən sala bilər. Saat 15-17 arası müqəddəs yerləri ziyarət edin.

**ƏQRƏB** - Bu gün sübut etməlisiniz ki, astroloqların sizin haqqınızda söylədiyi "əsəbi adam" fikri səhvdir. Bu mənada dedi-qoduya, məhəlli qeybətlərə əhəmiyyət verməyin. Əliniz hər yerdən üzüləndə isə nicatı sevgidə arayın.

**OXATAN** - Təmkinli olmağı bacarsanız, saat 14-dən sonra vəziyyət xeyrinizə dəyişəcək. Fəaliyyət yönümündə və maddi irəliləyişdə zaman xeyrinizə işləyəcək. Amma siyasi qovğalardan uzaq olmalısınız.

**OĞLAQ** - Münasibətlər konteksində ciddi redaktələr etməyinizə böyük ehtiyac var. Ulduzlar məsləhət görür ki, ilk növbədə qarşı tərəfə güzəştə gedəsiniz. Çünki sizin xilasınız ədalətli olmaqdan keçir.

**SUTÖKƏN** - Günün ilk yarısı süst keçməsin deyə həmin ərəfədə darıxdığınız adamlarla görüşməyiniz vacibdir. Bir anlıq bütün qayğılarınızı unutmalısınız. Sonrakı müddətdə isə fəaliyyət müstəvisində böyük uğurlara yetişəcəksiniz.

**BALIQLAR** - Gün ərzində üzərinizə düşən başlıca vəzifə ailə-sevgi münasibətlərini tənzimləməkdir. Digər məsələləri arxa plana salmaq da olar. Bunu bacardığınız təqdirdə digər işləriniz də qaydasına düşəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Arvadını öldürməsin deyə, polisdən yardım istədi



Vladivostok sakini yerli polislərdən onu saxlamağı və polis bölməsinə aparmağı xahiş edib. O, polislərə bildirib ki, arvadını öldürmək istəyir. Buna görə də öncədən həbs olunsa, daha yaxşı olar.

Lenta.ru saytı xəbər verir ki, bu haqda hüquq-mühafizə orqanlarından xəbər ediblər. Polis bölməsindəki növbətçi bildirib ki, zəng edən içkili vəziyyətdə olub. Daha sonra polis bölməsinə onun həyat yoldaşı zəng edərək deyib ki, gerçəkdən də əri onu bıçaqla öldürməklə təhdid edib. Hadisə yerinə gələn polislər öz vəzifələrinin öhdəsindən gəliblər və hadisəni araşdırmaq üçün kişini polis bölməsinə aparıblar.

Ölümlə təhdid etmə şikayəti əsasında ərə qarşı cinayət işi açılıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100